7 aprel 2023 №26 (1995)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# "Mədəni bünövrə bütün əlaqələrə zəmin yaradır"

## Prezident İlham Əliyev: "Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər"



Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyev 5-6 aprel tarixlərində Tacikistana dövlət səfəri edib. Aprelin 5-də Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Görüşdə Tacikistan və Azərbaycan xalqlarını qədim tarixi köklərə malik olan dostluq telləri bağladığını deyən Emoməli Rəhmon bu gün dövlətlərarası əlaqələrin geniş spektr üzrə ardıcıl surətdə inkişaf etdiyini bildirib: "Bu qarşılıqlı fəaliyyət siyasi, ticari-iqtisadi, elmi-texniki, mədəni-humanitar və bir sıra başqa sahələri əhatə edir. Biz Azərbaycan Respublikası ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli genişlənməsinə daim diqqət yetiririk. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar münasibətlərimizin gündəliyini keyfiyyətcə yeni məzmunla zənginləşdirəcək".

Prezident İlham Əliyev də iki ölkə arasında münasibətlərin qarşılıqlı dostluq üzərində qurulduğunu vurğulayıb: "30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlər dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəmbinasını qurmağa nail olmuşuq. Biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırıq. Dövlət səfəri çərçivəsində yeni qərarlar qəbul ediləcək, çoxlu sənədlər imzalanacaq, onlar münasibətlərimizin gələcək inkişafını müəyyən edəcək".

Dövlət başçılarının görüşündən sonra ikitərəfli sənədlər imzalanıb. Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident Emoməli Rəhmon bildirib ki, diplomatik münasibətlərin otuz ili ərzində Tacikistan və Azərbaycan səmərəli qarşılıqlı fəaliyyət mexanizmləri qura və qardaş xalqlarımızın rifahına xidmət edən sanballı nəticələr əldə edə biliblər. İki ölkə arasında , qarşılıqlı etimada əsaslanan əlaqələrin yaradılmasında Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin rolunu xüsusi vurğulayan Emoməli Rəhmon may ayında Heydər Əliyevin 100 illiyinin Tacikistanda da qeyd ediləcəyini deyib.

Prezident İlham Əliyevin səfərinin həm bu əlaqələrin, həm də xalqlarımızın çoxəsrlik qarşılıqlı ünsiyyət tellərinin məntiqi davamı olduğunu vurğulayan Tacikistan rəhbəri deyib: "Bu əlaqələrin əsasını hər bir tacikin evində dərin hörmət bəslənən, misli-bərabəri olmayan Nizami Gəncəvi qoyub. Buna görə də bizim danışıqlar, həmişəki kimi, qurucu xarakter daşıyıb, ikitərəfli qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəlib...".

davamı səh. 2-də

# Tacikistanla mədəniyyət sahəsində əməkdaşlıq memorandumu imzalanıb

Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Tacikistan Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində 2023-2024-cü illər üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli və Tacikistan Respublikasının mədəniyyət naziri Zulfiya Davlatzoda imzalayıblar.

səh. 2

# İran səfirliyinin 4 əməkdaşı "persona-non-grata" elan olunub

## 48 saat ərzində Azərbaycan ərazisini tərk etməlidirlər

Aprelin 6-da İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib.

İran səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunub.

# Britaniya parlamentinin üzvü azad olunmuş ərazilərə səfər edib



Böyük Britaniya İcmalar Palatasında Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən rəhbərlik etdiyi nümayəndə heyəti azad olunmuş ərazilərə səfər edib.

"Dəfələrlə Azərbaycanda səfərdə olmuşam. İndi isə ilk dəfədir ki, mən Ermənistanın işğalı altında olduğu müddətdə burada törədilmiş dağıntıları görmək üçün azad olunmuş ərazilərə səfər edirəm. Bu gözəl yerlərə insanların geri dönə bilməsi üçün yenidənqurma və bərpa məqsədilə genişmiqyaslı işlər görülür", – deyə Bob Bləkmən bildirib.

səh. 4

# Azərbaycanın İpək Yolu irsi UNESCO-da nümayiş etdirilir

## Parisdə təşkilatın İpək Yolları Proqramının 35 illiyi qeyd olunub




UNESCO-nun İpək Yolları Proqramının 35 illiyi aprelin 6-da, Parisdə qurumun mənzil-qərargahında qeyd edilib. Tədbir proqramın iştirakçılarından Azərbaycan, Çin, Qazaxıstan, Monqolustan və Omanın UNESCO yanında daimi nümayəndəlikləri tərəfindən təşkil edilib.

Yubiley tədbiri "İpək Yolu – müxtəliflik, dialoq və sülh" adlı beynəlxalq forumla başlayıb. Foruma təşkilatçı ölkələrin rəsmiləri, UNESCO yanında daimi nümayəndələr, ekspertlər qatılıblar. Azərbaycanı forumda mədəniyyət nazirinin müavini Səadət Yusifova, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, daimi nümayəndəliyin diplomatı Nahid Ömərov təmsil ediblər.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək ölkəmizin İpək Yolunun bərpasına verdiyi önəmdən və töhfələrdən söz açıb. Bildirib ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Bakı "TRACECA – tarixi İpək Yolunun bərpası" adlı Zirvə toplantısına ev sahibliyi edib və bu toplantıda "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli saziş imzalanıb. Həmin sazişlə İpək Yolu yenidən canlandırılıb. 2017-ci ildə Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmiryolu xətti Çindən Avropaya qədər mədəniyyətlərarası əməkdaşlığın inkişafına da böyük töhfədir.

Azərbaycanın İpək Yolunu daha da inkişaf etdirmək üçün yeni təkliflər irəli sürdüyünü diqqətə çatdıran Səadət Yusifova Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilməkdə olan Orta Dəhliz layihəsinin potensialını qeyd edib və onun İpək Yolunun daha da genişlənməsinə böyük töhfələr verəcəyini bildirib. Qeyd edilib ki, Azərbaycanın yenidən dirçəldilən Qarabağ regionu İpək Yolunun inkişafına müsbət təsir göstərəcək.

davamı səh. 3-də

# TÜRKSOY ölkələrinin UNESCO üzrə milli komissiyalarının iclası Bakı və Şuşada keçiriləcək




Aprelin 7-də Bakıda UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və Universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarının 9-cu iclasının açılış mərasimi keçiriləcək.

İclasda TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarının 9-cu dövr sədrliyi Türkiyə Cümhuriyyətinin UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına keçəcək.

TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarının 9-cu iclası aprelin 8-də 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşada davam edəcək. Şuşa şəhərində iclasın bağlanış mərasimində iclasın yekun bəyanatı qəbul olunacaq.

# "Mahnılarımız monitorinq aynasında"

Mahnılarda dilimizin düzgün tətbiqi çox vaxt arxa plana keçir. Mahnı mətnlərində kifayət qədər leksik və qrammatik norma pozuntusunun, üslub və ifadə səhvlərinin, ifalarda isə çox vaxt orfoepik normaya əməl edilməməsi və dialekt elementlərinin aşkarlanması buna əyani sübutdur.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva bu fikirləri aprelin 6-da "Mahnılarımız monitorinq aynasında" adlı hesabat tədbirində deyib. Bildirib ki, Azərbaycan xalqına məxsus mədəni irsin mühüm hissəsini təşkil edən musiqimiz bədii-estetik zövqün ifadəsi, milli ruh və ideologiyanın təcəssümüdür.

Ulu öndər Heydər Əliyevin "Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək" fikrini xatırladan direktor bildirib ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə xalqımızın milli sərvəti olan mədəni irsin qorunması və beynəlxalq səviyyədə təbliği ilə bağlı mühüm işlər görülür. Zəngin mədəni irsimizin bir sıra nümunələri, o cümlədən muğam və aşıq sənətləri UNESCO-nun siyahısına daxil edilib.

Mahnılarımızın monitorinqi barədə danışan S.Əliyeva bildirib ki, Azərbaycan musiqisinin əsas qolu olmaqla dilimizin bütün incəliklərini əks etdirən mahnı janrında ədəbi dil normalarının kobud şəkildə pozulması bu sahədə də monitorinqin aparılmasını zəruri edib.

davamı səh. 2-də

# Özbəkistanın mədəniyyət və milli mətbəxinin təqdimatı



Bakıda keçirilən 19-cu Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi ("AITF – 2023") çərçivəsində aprelin 5-də "Fairmont Baku" hotelində Özbəkistanın turizm və mədəniyyət günlərinə həsr olunan ziyafət təşkil edilib.

Tədbirdə Özbəkistanın musiqi və rəqsləri ifa olunub, eləcə də milli mətbəx nümunələri təqdim edilib.

səh. 8

Ulu öndərin 100 illiyi ilə bağlı daha bir konsert



səh. 3

"Sənətkar özünü zirvədə hesab etməməlidir"

Rasim Balayev: "Tamaşaçı sevgisi məndə özünəvurğunluq yaratmayıb"

səh. 5



Beynəlxalq Muğam Mərkəzində klassik musiqi axşamı

səh. 3

# Azərbaycanla Malayziya arasında diplomatik münasibətlərin 30 ili tamam olub

Aprelin 5-də Azərbaycan Respublikası ilə Malayziya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub.

Bu münasibətlə Malayziyanın XVI Ali Başçısı Sultan Abdullah Azərbaycan Prezidentinə təbrik məktubu göndərib.

"Son 30 il ərzində Malayziya ilə Azərbaycan arasında geniş əməkdaşlıq sahələrində qarşılıqlı hörmət və maraq doğuran məsələlərdə ortaq dəyərlər prinsipinə əsaslanan sıx səmimi münasibətlər mövcuddur. Biz ürəkdən inanırıq ki, dövlətlərimiz arasında əməkdaşlıq gələcək illərdə də genişlənərək, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin yeni sahələrini əhatə edəcək", – deyə məktubda bildirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Malayziya rəhbərini əlamətdar ildönümü münasibətilə təbrik edib.

"Biz Azərbaycan ilə Malayziya arasında dostluq münasibətlərinə böyük əhəmiyyət veririk. Ötən otuzillik dövr ərzində dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir. Ölkələrimizin beynəlxalq təsisatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığını vurğulamaq istərdim.

Bu gün ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı imkanlar vardır. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə dostluq münasibətlərimizi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik", – deyə məktubda vurğulanır.

# Tacikistanla mədəniyyət sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb



Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Tacikistan Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində 2023-2024-cü illər üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli və Tacikistan Respublikasının mədəniyyət naziri Zulfiya Davlatzoda imzalayıblar.

Bundan əlavə, Azərbaycanın Şuşa şəhəri ilə Tacikistanın İsfara şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında, iki ölkə arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında, Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq haqqında, gömrük qurumları arasında mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili sənədlər, iqtisadi əməkdaşlıq üzrə tədbirlər planı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinə dair yol xəritəsi, Xarici İşlər nazirlikləri arasında əməkdaşlıq proqramı, investisiyalar, startapların təşviqi və sahibkarlıq, turizm, bank və digər sahələrdə əməkdaşlığa dair anlaşma memorandumları imzalanıb.

# Heydər Əliyev Mərkəzində "Caz günü" keçiriləcək




Mayın 4-də Heydər Əliyev Mərkəzində "Caz günü" olacaq. Həmin gün Heydər Əliyev Mərkəzinin Auditorium zalının səhnəsinə əvvəlcə pianoçu və bəstəkar, beynəlxalq müsabiqələr laureatı Ruslan Ağababayev (piano), Ruslan Hüseynov (bas-gitara) və Elvin Başirovdan (zərb aləti) ibarət caz triosu çıxacaq.

Konsertin davamında trionun müşayiəti ilə Xalq artistləri Ənvər Sadıqov (qarmon), Tünzalə Ağayeva (vokal), Əməkdar artistlər Ceyla Seyidova (skripka), Sevda Ələkbərzadə (vokal), həmçinin Elnur Mikayılovun (kamança) ifasında caz kompozisiyaları təqdim olunacaq.

# "Mədəni bünövrə bütün əlaqələrə zəmin yaradır"

## Prezident İlham Əliyev: "Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər"





*əvvəli səh. 1-də*

Ticari-iqtisadi sahədə qarşılıqlı əlaqələrdən bəhs edən Emoməli Rəhmon əmtəə dövriyyəsinin artırılmasına dair təxirəsalınmaz tədbirlər görülməsi barədə razılığa gəlindiyini bildirib: "Danışıqlar çərçivəsində biz investisiyalar, sənaye kooperasiyası, kənd təsərrüfatı, nəqliyyat sahələrində və yanacaq-energetika kompleksində qarşılıqlı fəaliyyətin istiqamətləri üzərində ayrıca dayandıq. Energetika sektorunda Tacikistanın neft-qaz yataqlarının işlənilməsində Azərbaycan şirkətlərinin iştirakında maraqlı olduğumuzu təsdiq etdik. Biz Azərbaycanın əlverişli tranzit imkanlarından fəal istifadə olunmasını davam etdirəcək, Tacikistanın dövlət və kommersiya strukturlarının yükdaşıma həcmlərini artıracağıq. Danışıqlarda münasibətlərimizin humanitar istiqaməti mühüm yer tutdu. Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirməyə qarşılıqlı hazır olduğumuzu təsdiq etdik... Bugünkü danışıqların yekunları ölkələrimiz arasında münasibətlərin inkişafına böyük nikbinliklə və xoş ümidlərlə baxmağımıza imkan verir".

### "Sabitlik olmasa, tərəqqi olmaz"

Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan rəhbərinə təşəkkürünü bildirən Azərbaycan Prezidenti qeyd edib ki, bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərinin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir: "O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, – hərəsi öz ölkəsində, – qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı. Buna görə düşünürəm ki, xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar. Tacikistan və Azərbaycan isə keçmiş sovet respublikaları arasında müstəqillik yoluna ən pis və ən ağır şəraitdə qədəm qoyublar. Təbii ki, o dövrü yaxşı bilən adamlar bunu təsdiq edə bilərlər. Lakin həm Azərbaycanda, həm də Tacikistanda gənc nəsil də bunu bilməlidir. Bizim bugünkü uğurlu inkişafımız, necə deyərlər, göydən düşməyib, bunun arxasında məhz böyük liderlərin, xalqlarımızın liderlərinin əməyi durur. Onlar özləri üçün, öz həyatları üçün riskə gedərək dinc və uğurlu inkişafı təmin etmək naminə əllərindən gələni ediblər".

Aparılan danışıqların çox səmərəli olduğunu bildirən İlham Əliyev vurğulayıb ki, bütün istiqamətlər üzrə necə irəliləmək barədə dəqiq təsəvvürümüz var: "Nəqliyyat-logistika sahəsinə, sənaye kooperasiyasına, investisiya layihələri ilə bağlı məsələlərə dair konkret tapşırıqlar verilib. Biz Tacikistanda investisiya layihələrini ciddi nəzərdən keçirməyə hazırıq. Ona görə ki, əvvələn, Tacikistan bizə yaxın ölkədir, ikincisi, sabitlik hökm sürən ölkədir. İnvestisiyalar yalnız sabitlik və yaxşı investisiya şəraiti olan ölkələrə yönəldilir. Çoxsaylı xarici şirkətlər tərəfindən Tacikistanda fəal sərmayə qoyulması ona dəlalət edir ki, investisiyalar, o cümlədən xarici investisiyalar dövlət tərəfindən qorunur.

Mən əsla şübhə etmirəm ki, səfərin nəticələrinə əsasən ən yaxın vaxtda konkret addımlar atılacaq. Biz hökumətlərarası komissiyanın növbəti iclasını bu il Tacikistanda keçirmək barədə razılığa gəldik. Əminəm ki, hökumətlərarası komissiyanın iclasına qədər bizim məhz nəqliyyat-logistika qarşılıqlı əlaqələri, investisiya siyasəti, sənaye kooperasiyası məsələlərinə dair nümayəndə heyətlərinin üzvlərinə verdiyimiz bütün tapşırıqlar yerinə yetiriləcək".

### "Mədəni sahədə əlaqələrimizin möhkəm təməli var"

Azərbaycan Prezidenti mədəni sahədə qarşılıqlı əlaqələrin də möhkəm təməli olduğunu xüsusi qeyd edib: "Xalqlarımız əsrlər boyu dostluq, həmrəylik şəraitində yaşayıb, dostluq ediblər. Təsadüfi deyil ki, Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər. Demək istərdim ki, tacik xalqının görkəmli oğlu Rudəkinin abidəsinin azərbaycanlı heykəltəraş Fuad Əbdürrəhmanov tərəfindən yaradılması heç də təsadüfi deyil. Bu abidə 1960-cı illərdə Düşənbədə qoyulub.

Digər məşhur Azərbaycan heykəltəraşı Ömər Eldarov Sədrəddin Ayninin və İbn Sinanın abidələrini yaradıb. Yəni, bunlar çox şeyə dəlalət edir. Tacik xalqının görkəmli nümayəndələrinin abidələrinin yaradılmasının Azərbaycan nümayəndələrinə etibar edilməsi böyük etimad, dostluq, qardaşlıq deməkdir. Biz onu da bilirik ki, Tacikistanda dahi Azərbaycan şairi, doğma Gəncədə doğulmuş, yaşamış və orada dünyasını dəyişmiş Nizami Gəncəvini sevirlər və ona ehtiram bəsləyirlər. Bu mədəni bünövrə bu gün bütün istiqamətlər üzrə fəal qarşılıqlı əlaqələr üçün zəmin yaradır. Əminəm ki, biz bu gün təhsil sahəsində də, başqa sahələrdə də qəbul etdiyimiz bütün qərarları yerinə yetirəcəyik".

Tacikistandan 50-yə yaxın kursantın Azərbaycanın Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin tədris müəssisələrində təhsil aldığını deyən Prezident İlham Əliyev bu sayın artırılmasına şərait yaradılacağını bildirib.

Tacikistana üçüncü dəfə rəsmi səfərə gəldiyini, həmkarı Emoməli Rəhmonun da Azərbaycana üç rəsmi səfər etdiyini diqqətə çatdıran dövlət başçısı sonda deyib: "Bu, bizim münasibətlərin dinamikasına dəlalət edir. Fikrimcə, gələcəkdə bu səfərlər daha intensiv olacaq, birlikdə işləyəcək, dostluq edəcək və birgə gələcəyimizi quracağıq".

# "Azərbaycanın sənədli kino salnaməsi"ndə Tofiq İsmayılov yad edilib

Aprelin 6-da Azərbaycan kinosunun 125 illiyi və "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi münasibətilə Dövlət Film Fondunda "Azərbaycan sənədli kino salnaməsi" adlı silsilə retrospektiv baxış çərçivəsində növbəti tədbir keçirilib.






Xalq artisti, kinorejissor Tofiq İsmayılovun (1939-2016) doğum günündə gerçəkləşən tədbir onun yaradıcılığına həsr olunub.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev giriş sözündə Tofiq İsmayılovun bədii və sənədli kinoda xidmətlərindən danışıb.

Sonra kinorejissorun "Şəhərimin daşları" (1968) və "Prima" (1994) filmləri nümayiş olunub.

Nümayişdən sonra Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova, Əməkdar incəsənət xadimi, kinooperator Rafiq Qəmbərov, Əməkdar artist, aktyor, pedaqoq Ötkəm İsgəndərov, Xalq artisti, kinorejissor Əbdül Mahmudov, Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə, "Prima" filminin qəhrəmanı, məşhur rəqqasə Əminə Dilbazinin oğlu Mikayıl Hacıyev çıxış edərək Tofiq İsmayılovun filmlərindən söz açıb və onun haqqında xatirələrini bölüşüblər.

Sonda rejissorun ailə üzvləri adından qızı Vəfa İsmayılova çıxış edərək tədbirin təşkilinə görə Dövlət Film Fondunun rəhbərliyinə təşəkkürünü bildirib.

# "Mahnılarımız monitorinq aynasında"

## 350-yə yaxın mahnı monitorinqə cəlb edilib



*əvvəli səh. 1-də*

Monitorinq zamanı müəyyən olunan nitq faktları dilimizin özünəməxsus sabit qrammatik quruluşuna, leksik tərkibinə xələl gətirməklə yanaşı, bədii-estetik zövqümüzün korlanması, zəngin musiqi ənənələrimizin itirilməsi ilə bağlı narahatlığa da əsas verir. Aşkar edilən nöqsanların kütləvi hal alması mədəniyyətimizin inkişafına mane olduğu üçün bu sahədə ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi labüddür.

Qeyd olunub ki, mahnı yaradıcılığında söz və musiqi müəllifi, ifaçı, həmçinin aranjimançı və müvafiq mütəxəssislərin üzərinə böyük məsuliyyət düşür.

Sonra Monitorinq Mərkəzi əməkdaşlarının problem-mövzularla bağlı məruzələri dinlənilib. Bildirilib ki, mənşəyi bilinməyən top-reytinqli bayağı mahnıların intensiv şəkildə yayımlanması ilə "trend-mahnı" anlayışının qeyri-iradi qəbul olunması, milli mədəniyyətimizə yad, bayağı mahnıların insanlara gerçəklik kimi təqdim edilməsi artıq həyəcan təbili çalınmasını zəruri edir. Ümumilikdə 350-yə yaxın mahnı monitorinqə cəlb edilib və onlardan 177 mahnıda 1253 norma pozuntusu müəyyən olunub. Bunların da 668-i orfoepik, 111-i leksik, 144-ü qrammatik, 330-u üslub və ifadə səhvləridir.

Vurğulanıb ki, xarici boğaz və yad çalarlardan istifadə, ifaçılıq sənətinin bəlli qayda-qanunlarından kənara çıxan improvizələr, sözlərin heca-heca tələffüzü milli musiqimizin inkişafına böyük maneədir. Mahnı janrı ilə bağlı ənənələrimizə ciddi xələl gətirən bu elementlər bir müddət sonra milli təsir bağışlayacaq. Son dövrlər mahnı yaradıcılığında ciddi böhran müşahidə olunur. Heç bir məna yükü olmayan, bədiilikdən uzaq mətnlər, ifa üçün yetərli olmayan səs tembrləri və texnikalar musiqi mədəniyyətinə xidmət etmir. Milli dəyərlərimizə zidd davranışları, narkomaniyanı və zərərli vərdişləri, tüfeyli həyat tərzini aşılayan, hətta sui-qəsdə təşviq edən mahnıların təbliği sağlam gəncliyimizin formalaşması üçün böyük təhlükədir.

"Mahnılarımız monitorinq aynasında" adlı hesabatda zərərli vərdişlərdən istifadəni, tüfeyli həyat tərzini, milli-mənəvi dəyərlərimizə zidd olan davranışları təbliğ edən, aqressiv hərəkətlərə çağıran mahnıların siyahısı da tərtib olunub. Siyahıda onlarla müğənninin ifa etdiyi mahnılar yer alıb.

Tədbirdə çıxış edən yazıçı Seyran Səxavət dilimizin qorunması üçün təşəbbüslərin vacibliyini diqqətə çatdırıb. "Azərbaycan dili mənim hər şeyimdir. Hamımızın hər şeyidir. Ən məşhur mahnılarda elə sözlərə rast gəlirəm ki, şoka düşürəm. Bəs bu adam oxuduğu mahnının sözlərini eşitmir", – deyə yazıçı bildirib.

# Azərbaycanın İpək Yolu irsi UNESCO-da nümayiş etdirilir








*əvvəli səh. 1-də*

Səadət Yusifova Azərbaycan Mədəniyyət Nazirliyinin UNESCO-nun İpək Yolları Proqramında fəal iştirak etdiyini, onu dəstəklədiyini qeyd edib. Ölkəmizin UNESCO-nun Dünya İrs Komitəsi, eləcə də təşkilatın Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsi çərçivəsində İpək Yolu ölkələri ilə sıx əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Vurğulanıb ki, dünyəvi ölkə olan Azərbaycan mədəniyyətlərarası dialoqa böyük töhfələr verir, Azərbaycanın tolerantlıq mühiti dünya ölkələrinə nümunə kimi göstərilir. Nazir müavini Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə irəli sürülən və ötən müddətdə mədəniyyətlər və dinlər arasında dialoq sahəsində mühüm platformaya çevrilən "Bakı Prosesi" barədə də danışıb, Azərbaycanın 2021-ci ildə irəli sürdüyü "Mədəniyyət naminə sülh" layihəsinə toxunub.

Qeyd edib ki, İpək Yolu mədəniyyəti dünyanın ən qədim və zəngin xəzinəsi kimi böyük əhəmiyyət daşıyır. Müxtəlifliyi, dialoqu və sülh dəyərlərini təşviq etmək üçün UNESCO-nun İpək Yolları Proqramı daha da inkişaf etdirilməli və bu dəyərlər gələcək nəsillərə ötürülməlidir.

Forum digər ölkələrdən olan nümayəndələrin, ekspertlərin çıxışı ilə davam edib.

Qeyd edək ki, forumun məqsədi UNESCO-nun İpək Yolu proqramının mədəniyyətlərarası dialoqun və sülh mədəniyyətinin qurulmasına töhfələrini qiymətləndirmək, indiki qlobal kontekstdə mədəniyyətlərarası dialoq və mədəni müxtəliflik üzrə bacarıqların inkişafı üçün proqramın istiqamət və məqsədlərin bir daha nəzərdən keçirməkdir.

### "Öz İpək Yolunu Azərbaycanda tap!"

Forum çərçivəsində UNESCO qərargahının foyesində İpək Yolu irsini əks etdirən sərgi açılıb. Mərasimdə UNESCO baş direktorunun müavini Qabriela Ramos, Çin və Azərbaycanın UNESCO yanında daimi nümayəndələri çıxış edərək İpək Yolunun əhəmiyyətindən, UNESCO proqramı çərçivəsində həyata keçirilmiş layihələrdən bəhs ediblər.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Sərgidə Azərbaycanın İpək Yolu irsi Dövlət Turizm Agentliyi tərəfindən nümayiş olunur və ölkəmizin turizm potensialının inkişafı məqsədilə yeni "Find your own Silk Road in Azerbaijan!" ("Öz İpək Yolunu Azərbayvanda tap!") şüarı altında təqdim edilir.

Sərgidə Azərbaycanın İpək Yolu üzərində yerləşən digər ölkələrin mədəni irs elementləri ilə oxşar və eyni tərəflərini vurğulayan nümunələr, bu oxşarlığı özündə əks etdirən çoxsaylı abidələr haqda məlumatlar, həmçinin sənətkarlıq, musiqi və mətbəx elementləri nümayiş olunur.

***

Tədbir çərçivəsində "Gənclərin İpək Yoluna baxışı" fotomüsabiqəsinin təqdimatı da olub. İpək Yolu boyunca bilik və bacarıqların mübadiləsinə həsr olunmuş qısametrajlı film nümayiş olunub.

Tədbir "İpək Yolunda gənclərin tədqiqat təqaüdü" mövzusunda elmi simpoziumla davam edib. Simpozium gənc tədqiqatçıları və UNESCO-nun "İpək Yolu" gənclərin tədqiqat təqaüdünün birinci nəşrinin benefisiarlarını bir araya gətirib.

Sonda iştirakçı ölkələrin incəsənət nümayəndələrinin konsert proqramı təqdim olunub.

Qeyd edək ki, UNESCO-nun İpək Yolları Proqramı 1988-ci ildə "İpək Yolunun inteqral tədqiqatı, dialoq yolları" adlı elmi ekspedisiya, sahə araşdırmaları və konfranslar vasitəsilə Şərq və Qərb xalqları arasında mədəni qarşılıqlı əlaqələri işıqlandıran təşəbbüslə başlayıb. Proqramın 2012-ci ildə başlanan ikinci mərhələsində biliklərin inkişafı, səfərbərliyi və yayılması, tərəfdaşlıq və şəbəkənin qurulması, gənclərin səlahiyyətlərinin artırılması kimi üç əsas sahəyə diqqət yetirilib.

Onu da əlavə edək ki, Dövlət Turizm Agentliyi Azərbaycanın İpək Yolu irsi üzərindən turizm potensialının gücləndirilməsi məqsədilə inkişaf planı hazırlayıb. Plan üzrə Azərbaycanın mədəni irs elementləri üzərindən İpək Yolu mövzusunda müxtəlif turizm məhsullarının hazırlanması, regional İpək Yolu mərkəzlərinin yaradılması kimi tədbirlər nəzərdə tutulub.

# "Heydər Əliyevin irsini öyrənirik"



Azərbaycan Milli Xalça Muzeyində Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı tərəfindən Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Biz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" adlı məktəbin növbəti görüşü keçirilib.

"Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından güc alır" mövzulu tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, "Azərxalça" ASC-nin istehsalat üzrə direktoru Əlisəfa Nuriyev çıxış ediblər.

Görüşə qatılan gənclər üçün ekskursiya təşkil olunub, onlara muzeyin tarixi, fəaliyyəti, kolleksiyaları haqqında ətraflı məlumat verilib.

Sonda qonaqlar Əməkdar rəssam, heykəltəraş Aslan Rüstəmovun iştirakı ilə onun müəllifi olduğu "Xalçanın kosmik poetikası" rəsm əsəri (2020-ci il) əsasında toxunmuş xalçanın dəzgahdan kəsim mərasimini izləyiblər.

Milli Xalça Muzeyi müasir rəssamlarla sıx əməkdaşlıq edir və Ənənəvi texnologiya şöbəsində onların əsərləri əsasında xalçalar yaradılır. Əməkdar mədəniyyət işçisi Şirin Məlikovanın ideya müəllifi olduğu "Xalçanın kosmik poetikası" rəsm əsəri əsasında hazırlanmış xalça da belə nümunələrdəndir. Xalçanın kompozisiyası göy cisimlərinin stilizə olunmuş təsvirindən ibarətdir. Rəssamın fikrincə, xalçada olan bu təsvirlər yaradıcı şəxsin əhatə olunduğu real həyatdan götürülüb. Ancaq onun təxəyyülünə uyğun bədii stilizasiyaya uğrayıb, gerçəkliyi özündə əks etdirən xüsusi naxış dilinə çevrilib. 8 müxtəlif rəngli yun iplərdən toxunmuş xalçanın texniki eskizinin müəllifi Sevinc Əliyevadır.

# Parisdəki səfirimiz tələbələri ölkəmiz və region barədə məlumatlandırıb

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva ölkənin aparıcı ali təhsil ocaqlarından olan Siyasi Elmlər Universitetinin (Science Po de Paris) Asiya Assosiasiyasının tələbələri ilə görüşüb.



Səfir tələbələrə Azərbaycanın tarixi, müsəlman Şərqində ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, ölkəmizin mədəni irsi, xarici siyasəti və regionda mövqeyi haqqında ətraflı məlumat verib. Bildirib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın hərbi təcavüzü ilə üzləşib. Otuz il davam edən erməni işğalı zamanı ölkəmiz münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışıb. Ancaq münaqişənin həlli həvalə edilmiş ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, eləcə də Ermənistanın hərbi təxribatları Azərbaycanı torpaqlarını müharibə yolu ilə azad etməyə məcbur edib.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz sayəsində işğal altındakı ərazilərimiz azad edilib. Səfir qeyd edib ki, bununla Azərbaycan regionda yeni reallıqlar yaradıb. Ölkəmizin niyyəti regionda sabitliyin və sülhün bərqərar olunmasına töhfə verməkdir.

Səfir həmçinin müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı, Ümummilli lider Heydər Əliyevin ölkə iqtisadiyyatını yenidən dirçəltməsi, "Əsrin kontraktı"nın imzalanması və dünyanın nəhəng şirkətlərinin ölkəmizə cəlb edilməsindən söz açıb.

Diqqətə çatdırılıb ki, Azərbaycanın reallaşdırdığı nəhəng enerji layihələri Avropa İttifaqının enerji təhlükəsizliyinə böyük töhfələr verib. Tələbələr Prezident İlham Əliyevin təşəbbüsü olan "Yaşıl enerji" strategiyası, enerji mənbələrinin şaxələndirilməsi, bərpaolunan enerjinin önəmi barədə də məlumatlandırılıb. Leyla Abdullayeva həmçinin ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyündən, eləcə də Qoşulmama Hərəkatına sədrliyindən söz açıb.

Təqdimatdan sonra tələbələrin sualları cavablandırılıb.

## Fransa səfirliyinin attaşesi Tarix Muzeyini ziyarət edib

Fransanın ölkəmizdəki səfirliyinin mədəniyyət işləri üzrə attaşesi Pier-Antuan Ferasen Milli Azərbaycan Tarixi Muzeyini ziyarət edib.



Attaşe muzeyin direktoru akademik Nailə Vəlixanlı ilə görüşüb. Görüşdə Azərbaycan-Fransa mədəni əlaqələri barədə söhbət aparılıb. Söhbət zamanı Nailə Vəlixanlı qonaqları muzeyin yenidən qurulan ekspozisiyasının açılış mərasiminə də dəvət edib.

Sonra qonaq Tarixi Muzeyində yaradılan böyük xeyriyyəçi H.Z.Tağıyevin Ev-Muzeyi ilə tanış olub. Attaşe Pier-Antuan H.Z.Tağıyevin fəaliyyətini yüksək qiymətləndirdiyini və muzeydən böyük zövq aldığını bildirib.

## Ulu öndərin 100 illiyi ilə bağlı daha bir konsert

Aprelin 5-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsert təşkil edilib.



Konsertdə Xalq artisti, bədii rəhbər və baş dirijor Fəxrəddin Kərimovun rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri çıxış edib.

Əməkdar artist, tarzən Sahib Paşazadənin ifasında Fikrət Əmirovun "Min bir gecə" baletindən "Orgiya", Tofiq Bakıxanovun "Tar və orkestr üçün konsert №5" (ilk ifa), Azər Dadaşovun "Simfoniya №14" və "Mələyin günü", eləcə də Həmid Vəkilovun "Tar və orkestr üçün konsert №2" (ilk ifa) əsərləri səsləndirilib.

Konsertdə ustalıqla təqdim edilən musiqi nömrələri mədəniyyətimizin böyük hamisi olmuş Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramın ifadəsi kimi alqışlarla qarşılanıb.

## Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənib

Azərbaycan Dövlət Akademik Filarmoniyasında aprelin 4-də Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin konserti keçirilib.



Respublika və beynəlxalq müsabiqələr laureatı Mustafa Aşurovun dirijorluğu ilə reallaşan konsertdə Xalq artisti Gülyanaq Məmmədova, Əməkdar artistlər Almaz Orucova, Zakir Əliyev, Fuad Hacıyev, Xəyyam Məmmədov, Çinarə Heydərova, solistlər Vəfa Vəzirova, Samir Piriyev, Taleh Yəhyayev, Rəvan Qaçayev, Zabitə Əliyeva, Nurlana Abdullayeva, Emin Eminli və Orxan Soltanov könül oxşayan musiqi nömrələri ilə çıxış ediblər.

Azərbaycan və Qərbi Avropa bəstəkarlarının əsərlərinin ifa olunduğu konsert musiqisevərlərə unudulmaz anlar bəxş edib.

## Beynəlxalq Muğam Mərkəzində klassik musiqi axşamı

Beynəlxalq Muğam Mərkəzində klassik musiqi konserti olub. Rusiya və beynəlxalq miqyaslı müsabiqələr laureatları Mariya Paxar (soprano), İlya Xardikov (tenor) rus və xarici ölkə bəstəkarlarının operalarından ariyaları və romansları ifa ediblər. Onları fortepianoda Sergey Semyonov müşayiət edib.



Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (Bakıdakı Rus Evi) mətbuat xidmətindən verilən məlumata görə, konsert Azərbaycanda həyata keçirilən "Rus dili millətlərarası ünsiyyət vasitəsi kimi" təhsil, maarifçilik layihəsi çərçivəsində təşkil edilib.

Rusiya Prezidenti Mədəni Təşəbbüslər Fondunun dəstəyi ilə həyata keçirilən layihənin təşkilatçıları Moskvadakı L.N.Tolstoy Dövlət Muzeyi, "KinoFokus" şirkəti, Bakıdakı Rus Evi və digər qurumlardır.

## Musiqi Mədəniyyəti Dövlət Muzeyində iki böyük bəstəkarın xatirəsi anılıb

Aprelin 5-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə məşhur rus bəstəkar, pianoçu və dirijor Sergey Raxmaninovun (1873-1943) 150 illik və dahi Azərbaycan bəstəkarı, pedaqoq Qara Qarayevin (1918-1982) 105 illiyinə həsr olunmuş konsert proqramı təqdim olunub.





Konsertdən öncə muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova hər iki bəstəkarın yaradıcılığından, onların dünya musiqi mədəniyyətinin inkişafında xidmətlərindən danışıb.

Konsert proqramında Bakı Musiqi Akademiyasının professor-müəllim heyəti və tələbələrin ifalarında Qara Qarayev, Sergey Raxmaninov, Fərəc Qarayev, Xəyyam Mirzəzadə və İsmayıl Hacıbəyovun əsərləri səsləndirilib.

Konsert muzeyin zəngin kolleksiyaları əsasında hazırlanmış videoçarx və fotomaterialların nümayişi ilə müşayiət olunub.

## Mədəniyyət nazirinin birinci müavini Qobustanda vətəndaşlarla görüşəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli tərəfindən 2023-cü il 28 aprel tarixində saat 10:00-da Qobustan rayonu Heydər Əliyev Mərkəzində (Qobustan şəhəri, Elyar Vəliyev küçəsi 162) vətəndaşların qəbulu keçiriləcək. Qəbulda əsasən Qobustan, Şamaxı və Ağsu rayonlarından olan vətəndaşların müraciətləri dinləniləcək.

Vətəndaşlar 19 aprel 2023-cü il tarixinə qədər nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493-30-02 telefon nömrəsi vasitəsilə və "Whatsapp" xidmətinə (077 714 71 47) müraciət etməklə qəbula yazıla bilərlər.

## Britaniya parlamentinin üzvü azad olunmuş ərazilərə səfər edib



Böyük Britaniya İcmalar Palatasında Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin rəhbərlik etdiyi nümayəndə heyəti azad olunmuş ərazilərə səfər edib.

Aprelin 6-da ilk olaraq Ağdama gələn heyəti Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov və Milli Məclisin deputatı Soltan Məmmədov müşayiət edib.

Səfərin məqsədi 30 il müddətində erməni işğalçılarının törətdikləri əməllər barədə qonaqlara məlumat vermək, həmçinin işğaldan sonra həyata keçirilən tikinti-quruculuq işləri ilə tanışlıq, Azərbaycanın əzəli torpaqları olan Qarabağın ölkəmiz üçün əhəmiyyəti, regionun zəngin tarixi və mədəni irsini dünyaya çatdırmaqdır.

"Dəfələrlə Azərbaycanda səfərdə olmuşam. İndi isə ilk dəfədir ki, mən Ermənistanın işğalı altında olduğu müddətdə burada törədilmiş dağıntıları görmək üçün azad olunmuş ərazilərə səfər edirəm. Bu gözəl yerlərə insanlar geri dönə bilsinlər deyə yenidənqurma və bərpa məqsədilə genişmiqyaslı işlər görülür", – deyə Bob Bləkmən bildirib (APA).

Britaniya parlamentinin üzvü qeyd edib ki, mina məsələsi ciddi problemdir və ərazilərin minalardan təmizlənməsi ilə bağlı böyük işlər görülür: "Bundan başqa, yeni yolların, dəmiryolu xətlərinin çəkilməsi istiqamətində fantastik işlər görülür. Ətrafa baxırıq, hər tərəf bu illər ərzində, 30 il müddətində dağıdılıb, hər yerdə dağıntıların izləri var". Mədəni və dini obyektlərin də tamamilə dağıdıldığını vurğulayan Bob Bləkmən əlavə edib ki, burada yaşayışın tam təmin olunması, kənd təsərrüfatının qurulması müəyyən zaman alacaq: "Eyni zamanda azad olunmuş ərazilərdə indiyə qədər əldə olunan nailiyyətlər, tikinti işləri, yolların çəkilməsi və s. heyrət doğurur...".

## "Kitab işıq saçar bir günəş kimi..."



Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi Beynəlxalq Uşaq Kitabı Günü (2 aprel) münasibətilə "Sevimli kitablar" adlı tədbir keçirib. Tədbirdə Zərdab rayon İ.Nəsimi adına Yarməmmədbağı kənd tam orta məktəbinin bir qrup şagirdi iştirak edib.

Samux rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Kitablar ən yaxın dostunuz olsun" adlı sərgi təşkil edib. Sərgi məktəblilərdə mütaliəyə marağı artırmaq məqsədilə keçirilib.

Qazax rayon E.Hüseynov adına Mərkəzi Kitabxanada "Uşaqlar kitabla böyüdək!" adlı sərgi keçirilib. Sərgidə "Uşaqları kitabla böyüdək!", "Unutma, hər sirrin açarı kitablardadır!", "Kitab işıq saçar bir günəş kimi..." adlı bölmələrdə 70-dən çox uşaq ədəbiyyatı nümunələri təqdim edilib.

## "Antisemitizmin olmadığı bir yer"

ABŞ-də geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrində "Antisemitizmin olmadığı bir yer" sərlövhəli məqalə dərc olunub.

İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, tanınmış siyasətçi Ayub Karanın qələmə aldığı məqalədə Anti-Diffamasiya Liqasına istinadən bildirilir ki, ABŞ-də antisemitizm bütün zamanların ən yüksək həddinə çatıb. Antisemitizm təzahürləri əvvəlki ilə nisbətən 36 faiz artıb.

Qeyd olunub ki, antisemit mövqeli ruhanilərin moizələri, antisemit xarakterli kitablar və televiziya verilişləri, sosial mediada antisemit bəyanatlarla müşayiət olunan məqalələr yəhudilərə qarşı zorakılıqlara səbəb olur. İranın Afinada israilliləri hədəfləyən və qarşısı alınmış hücum planı, Huvar və Təl-Əvivdə daha əvvəl baş vermiş hücumlar yaxın zamana aid misallardır. Eyni zamanda, vurğulanır ki, Qərbdə antisemitizmin təlqini ABŞ-də Pittsburq, Kaliforniya və Texasdakı sinaqoqlara hücumlar, Almaniyada da sinaqoqlara basqınlar, Fransada dinc yəhudilərin qətli ilə nəticələnib. Müəllif antisemit təbliğatının Qərbdəki ifrat sağçı neonasistlər və ifrat solçular arasında da yayıldığı diqqətə çatdırır.

Bütün bunlar fonunda sabiq nazir dünyada yəhudilər üçün yeganə təhlükəsiz məkan kimi Azərbaycanı qeyd edib. O, Azərbaycanı dünyada dindar yəhudilərin təqib qorxusu olmadan dini geyimdə küçələrdə sərbəst gəzə bildikləri nadir yer kimi səciyyələndirib. Müəllifin fikrincə, çoxları inanmaqda çətinlik çəkə bilər ki, Azərbaycan dünyada yəhudilərin tam azadlıqda yaşadığı nadir yerlərdən biridir, yəhudilər burada terror aktı və ya antisemitizm təzahürü qorxusu ilə yaşamağa məhkum deyillər. Sabiq nazir Azərbaycanda olarkən ravvin Zamir İsayevlə görüşdüyünü və sonuncunun antisemitizmin Azərbaycan mədəniyyətinə yad olmasına dair səsləndirdiyi fikirlərdən təsirləndiyini də qeyd edib.

Məqalədə vurğulanır ki, antisemitizmin kökünü kəsmək üçün digər ölkələr Azərbaycandan uğurlu multikultural cəmiyyət qurmağın modelini öyrənməlidir. Məhz Azərbaycan insanların Pesxa, Novruz və digər bayramları bir yerdə qeyd etdikləri cəmiyyət yaratmağa müvəffəq olub.

# Xalqı birləşdirən azərbaycançılıq məfkurəsinin müəllifi

### Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri davam edir





Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə rayon İ.Nəsimi adına 1 saylı tam orta məktəbin yuxarı sinif şagirdləri üçün "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda tarix dərsi keçirilib. İştirakçılara Ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrləri, çoxşaxəli fəaliyyətinin ayrı-ayrı aspektləri, Azərbaycan tarixindəki yeri və rolu barədə geniş məlumat verilib. Sonda Ulu öndərə həsr edilmiş "Böyük ömrün anları" adlı sənədli film nümayiş etdirilib.

***

Zərdab rayon Heydər Əliyev Mərkəzi və Həsən bəy Zərdabinin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və xalqı birləşdirən azərbaycançılıq məfkurəsi" mövzusunda tədbir keçirilib. Tədbirdə "Yolumuzu nurlandıran dühа – Heydər Əliyev" başlıqlı sərgi və Ümummilli liderin 100 illik yubileyi ilə əlaqədar hazırlanmış sənədli film nümayiş olunub.

***





Hacıqabul Tarix-Diyarşünaslıq Muzeyi və rayon MKS-nin şəhər filiallarının təşkilatçılığı ilə "Mədəniyyətə bağlı ömür" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin hakimiyyətə gələndən sonra mədəniyyət sahəsinə, milli-mənəvi dəyərlərimizə, tarixi abidələrimizə xüsusi qayğı göstərdiyini qeyd ediblər.

***

Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbi Xalq çalğı alətləri şöbəsinin xanəndəlik sinfi "Heydər baba xatirələri" adlı konsert proqramı təşkil edib. Ulu öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra şagirdlərin ifasında Vətəni tərənnüm edən mahnılar səsləndirilib.

***

M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Şorsu kənd Folklor klubunda "Xalq üçün doğulan lider" mövzusunda tədbir keçirilib. Tədbirdə Şorsu kənd tam orta məktəbin kollektivi, kənd sakinləri və Folklor klubunun əməkdaşları iştirak ediblər.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və şanlı Zəfər tariximiz" adlı konfrans təşkil olunub. Tədbir iştirakçıları "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmini izləyiblər.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycan mədəniyyəti Heydər Əliyev işığında" layihəsi çərçivəsində "Şairlərimizi tanıyaq" adlı Lənkəran poeziyasevərlərinin Yardımlıda yaşayan şairlərlə görüşü keçirilib. Görüşdə şeir mədəniyyəti, sənət və sənətkarlar haqqında fikirlər dinlənilib, şairlərin poeziya nümunələri səsləndirilib, videoçarxlar nümayiş etdirilib.

***

Ağcabədi rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Dahilər dahisi çağırılır adın" mövzusunda tədbir keçirilib. Bildirilib ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarıb. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Çıxışlardan sonra Laçın rayon 23 nömrəli tam orta məktəbin şagirdləri Ulu öndərə həsr olunmuş ədəbi kompozisiya təqdim ediblər.

***

Bərdə Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi rayon və şəhərlərdə Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və mədəniyyətimiz" adlı bilik yarışması keçirilir. Müsabiqənin məqsədi Ulu öndərin dövlətçilik irsinin öyrənilməsi, təbliği, milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə aşılanmasıdır.

Bərdə, Tərtər, Yevlax və Mingəçevirin tam orta məktəbləri şagirdlərinin iştirak etdiyi bilik yarışı Bərdə RMİ, Qarabağ və Mərkəzi Aran Regional Təhsil idarələrinin birgə təşkilatçılığı ilə gerçəkləşir.

Adıçəkilən şəhər və ya rayonların hər biri üzrə 4 komanda müəyyən olunub. Onlardan biri öz yerində qalib olduqdan sonra finalda yarışacaq.

Yarışmanın ilk mərhələsinə Tərtər rayonunda başlanılıb. "Volunteers" komandası finala vəsiqə qazanıb.

***

Masallı rayon Mərkəzi Kitabxanasında "Zamanın fövqündə dayanan lider" adlı tədbir təşkil edilib. Qeyd olunub ki, Ulu öndərin siyasi uzaqgörənliklə işləyib hazırladığı, Azərbaycanın hərtərəfli inkişafı və dünyanın seçilən dövlətləri sırasına qoşulması məqsədi daşıyan mütərəqqi siyasi kursu sayəsində ölkəmiz qısa müddətdə regionun lider dövlətinə, əsl söz sahibinə çevrilib.

***

Samux şəhər Uşaq musiqi məktəbində Musiqi-nəzəri fənlər şöbəsində viktorina keçirilib. Şagirdlər Ulu öndərin həyat və siyasi fəaliyyətinə həsr olunmuş, həmçinin nəzəri fənlər və musiqi dinləmələri üzrə tərtib olunmuş sualları cavablandırıblar.

# "Zəfərə açılan Aprel səhəri"





2016-cı ilin Aprel döyüşlərinin 7-ci ildönümü münasibətilə yerlərdə müxtəlif tədbirlər təşkil edilib.

Göyçay rayon Mərkəzi Kitabxanasında Aprel döyüşlərinin 7-ci ildönümü münasibətilə kitab sərgisi təşkil edilib.

İsmayıllı rayon MKS-nin 2 saylı şəhər kitabxana filialında "Şəhidlər ölməzdir!" başlıqlı sərgi təşkil edilib.

Qax rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri – böyük Zəfərin başlanğıcı" adlı tədbir keçirilib. Tədbirdə Qax şəhər Namiq Allahverdiyev adına 2 saylı məktəb-liseyin müəllim və şagird kollektivi də iştirak edib.

Sumqayıtın Tarixi Muzeyi və şəhər 2 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Zəfərə açılan Aprel səhəri" adlı tədbir keçirilib. 2016-cı ildə baş verən "dördgünlük müharibə"də Ordumuzun qəhrəmanlığı nəticəsində 2 min hektardan artıq ərazinin işğaldan azad olunmasından və bu döyüşlər zamanı sumqayıtlı şəhidlərimizin şücaətindən bəhs edən mühazirə və videoçarx təqdim edilib.





Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Aprel döyüşləri Zəfər tariximizin başlanğıcıdır" adlı tədbir keçirilib. Qeyd olunub ki, 2016-cı ilin Aprel döyüşləri dövlətimizin və Ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirib. "Dördgünlük müharibədə" qazanılan Qələbə xalqımızın orduya olan inamını artırıb. Bu uğurlu döyüşlər böyük Zəfərimizin təməli olub.

Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ), Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialı tərəfindən Aprel döyüşlərinin şəhid kapitanı İnqilab Quliyevin ailəsi ilə görüş keçirilib. Şəhidin valideynləri və yaxınları qəhrəman haqqında xatirələrini bölüşüblər. Bildirilib ki, öz istəyi ilə hərb sahəsini seçən İnqilabın ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək və üçrəngli bayrağımızı doğma yurdu Kəlbəcərə sancmaq idi. Çıxışlardan sonra şəhidin 21 nömrəli tam orta məktəbdə təhsil alan övladları Hüseyn və Əyyam Quliyevlərin iştirakı ilə "Şəhidlərimiz qürur yerimizdir" adlı bədii kompozisiya təqdim olunub.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir" adlı film nümayiş olunub.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "4-dən 44-də" başlığı altında tədbir keçirilib. Bildirilib ki, Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərməklə bərabər, ədalətin bərpa olunacağı Zəfər tarixinin başlanğıcı kimi də tarixə düşüb. Çıxışlardan sonra bu döyüşlərdə şəhidlik zirvəsinə yüksələn oğullarımıza həsr olunmuş sərgiyə baxış olub.

**Hazırladı: N.Məmmədli**

## Qubada yaşayan dağ yəhudiləri Pesax bayramını qeyd edirlər



Aprelin 5-dən başlayaraq Quba rayonunda yaşayan dağ yəhudiləri Pesax bayramını qeyd edirlər. Azadlıq və bahar mənasını verən Pesax bayramı dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədə 8 gün davam edir.

Bayram günlərində müxtəlif dini ayinlər icra olunur. Bu günlərdə dağ yəhudiləri səhər və axşam saatlarında sinaqoqa gedib ibadət edirlər.

Pesax yəhudilərin ən mühüm bayramlarından biridir. Tarixi mənbələrdə bildirilir ki, 3 min 500 il əvvəl Misir fironunun zülmündən xilas olan yəhudilər 8 gün Tanrıya dua ediblər. Sonralar yəhudilər baharın gəlişi ilə eyni vaxtda azadlığın əldə olunması bayram kimi qeyd etməyə başlayıblar.

Quba Rayon İcra Hakimiyyəti başçısının Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Telman Muxailov deyir ki, Pesax bayramının simvolu duzsuz, qurudulmuş çörəkdir. Ənənəyə görə, yəhudilər bayram günlərində yeganə un məmulatı kimi məhz duzsuz quru çörəkdən – "matsa"dan istifadə edirlər. Bununla yanaşı, bayram süfrəsində qoz, şabalıd və almadan hazırlanan yemək də olur.

Bayram günlərində hamı bir-birini qonaq çağırır. Pesaxın zəruri şərtlərindən biri də budur ki, bütün imkansızlar, həmkəndlilər bayramı öz ailəsi ilə birgə qeyd edə bilməyənlər yemək süfrəsinə dəvət olunmalıdır. Bayrama qədər evlərdə, küçələrdə təmizlik işləri görülür.

Qubadakı Qırmızı qəsəbədə 3 mindən çox dağ yəhudisi yaşayır. Burada anadan olan, hazırda isə xarici ölkələrdə yaşayan dağ yəhudilərinin də müqəddəs Pesax bayramını doğma qəsəbədə qeyd etmələri ənənəyə çevrilib. Pesax bayramı aprelin 13-dək davam edəcək.

## "Heydər Əliyev və Türk dünyası" mövzusunda konfrans



Milli Məclisin Mədəniyyət komitəsinin təşkilatçılığı ilə aprelin 4-də Beynəlxalq Muğam Mərkəzində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.

"Heydər Əliyev və Türk dünyası" mövzulu konfransda Türkmənistan, Qırğızıstan və Özbəkistandan nümayəndələr və incəsənət xadimləri iştirak ediblər.

Çıxışlarda Ulu öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışılıb. Azərbaycanın Türk dünyası ilə əlaqələrinin qurulmasında, münasibətlərin dərinləşməsində, habelə ölkəmizdəki tolerantlıq mühiti və azərbaycançılıq ideologiyasının inkişafında Heydər Əliyevin əvəzsiz xidmətləri xüsusi qeyd edilib.

Tədbirdə incəsənət ustalarının ifasında konsert proqramı təqdim olunub.

## Könül Xasıyevanın yaradıcılıq gecəsi keçirilib

Xalq artisti, muğam və xalq mahnılarımızın mahir ifaçısı Könül Xasıyevanın 55 illik yubileyi münasibətilə aprelin 3-də Beynəlxalq Muğam Mərkəzində yaradıcılıq gecəsi təşkil olunub.



Sənətkarın yaradıcılıq gecəsində həmkarları da səhnəyə çıxaraq musiqili təbriklərini təqdim ediblər.

Muğam və şeirlə dolu proqrama Könül Xasıyevanın ifaları ilə yanaşı, bədii qiraətçi, Əməkdar artist Ağalar Bayramovun çıxışı da xüsusi rəng qatıb.

Könül Xasıyeva 17 mart 1968-ci ildə Şəkidə anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbini (Xalq artisti Şövkət Ələkbərovanın sinfi) və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını (Xalq artisti, xanəndə Arif Babayevin sinfi) bitirib. Türkiyə, Almaniya, Fransa, İtaliya, Rusiya və başqa ölkələrdə konsert proqramları ilə çıxış edib.

## "Sənətkar özünü zirvədə hesab etməməlidir"

### Rasim Balayev: "Tamaşaçı sevgisi məndə özünəvurğunluq yaratmayıb"

O, ekranların sevilən simasıdır. Ötən əsrin 70-ci illərindən qazandığı tamaşaçı sevgisi heç vaxt azalmayıb. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Rasim Balayev. Görkəmli aktyor bu il 75 yaşını qeyd edir. Mədəniyyət Nazirliyinin "Mədəniyyət sizinlə tanınır" layihəsinin çəkilişləri vəsiləsi ilə görüşdüyümüz sənətkarla qəzetimiz üçün də müsahibə aldıq.

*– Rasim müəllim, Sizin üçün sənət nədir?*

– Bütün həyatımı sənətə həsr etmişəm. Təxminən 9-10-cu sinifdən sənətə həvəsim olub. Ancaq ailədə sənətə gəlməyimi istəmirdilər. Bütün narazılıqlara baxmayaraq, özümü sənətdə tapdım. Artıq 50 ildən çoxdur ki, sənətdəyəm. Sənət həyatımın əsas qayəsidir. Mən sənətə çox böyük məhəbbətlə gəlmişəm. Şükürlər olsun ki, Azərbaycan kinosunun "qızıl dövrü"ndə bu sahəyə gəldim. Bəzən 8 film eyni vaxtda çəkilirdi. Mən bu filmlərin əksəriyyətində rol alırdım. Başımla qarışırdı ki, bir də baxırdım ki, artıq növbəti il gəlir...

*– Kinomuzun "qızıl dövrü"ndən danışdınız, ölkəmizdə bu sahənin indiki vəziyyəti haqqında düşüncələriniz necədir?*

– Bu gün Azərbaycan kinosu, mənə görə, tamaşaçıları razı sala bilmir. Bunun da səbəbi vaxtilə inkişaf edən kino sahəsinin birdən-birə dayanması oldu. Nəsillərarası əlaqə, belə deyək, estafet qırıldı. Pessimist fikir deməyimə baxmayaraq, qeyd etmək istərdim ki, tarixdə belə hallar yaşanır. Sənətin müəyyən sahələrinin inkişaf və durğunluq dövrləri olur. Ümid edirəm ki, kino sahəmiz yenidən öz reysinə düşəcək, öz ənənələrinə sadiq qalaraq yenidən yüksəliş dövrünə qayıdacaq. Həm sənət adamları, həm də tamaşaçı kütləsini sevindirə biləcək yeni-yeni ekran əsərlərimiz yaranacaq.

*– Canlandırdığınız obrazlardan ən çox sevdiyiniz hansıdır?*

– Müxtəlif filmlərdə baş və epizodik rollarda oynamışam. Amma inanın ki, deyirəm, hər bir roluma, böyük-kiçikliyindən asılı olmayaraq, ciddi yanaşmışam. İndi ola bilsin ki, hansısa səbəbdən – ya dramaturji, ya rejissor tərəfindən, ya da elə mənim oyun tərzimdən tamaşaçını qane etməyən rollar olsun. Rollarımın içində mənə ən əziz olanı Nəsimidir. Niyə? Çünki ona qədər məni hər dəfə sınaqdan keçirirdilər və filmlərə çəkmirdilər. Deyirdilər sənin siman kino üçün deyil və s. Ay dolandı, il keçdi, "Nəsimi" çəkildi və uğurlu alındı. Ondan sonra, demək olar ki, mənim üçün yol açıldı. Məni nəinki Bakı kinostudiyası, hətta Orta Asiya ölkələri, Almaniya və Türkiyədən də filmə dəvət etdilər. Bu film mənə bir pasport verdi, yol açdı və bu mənada mənə çox əzizdir.



*– Yəqin ki, özünüzü şanslı aktyor hesab edirsiniz. Siz elə ilk addımlardan sevilmisiniz. Aktyor tamaşaçı sevgisini necə qazanır?*

– Bəli, özümü şanslı hesab edirəm. Xalqın mənə sevgisindən danışsaq, əvvəllər vatsap, feysbuk yox idi. Mənə çoxlu məktublar yazardılar. O qədər məktublar almışam ki... Deməyim odur ki, bu qürurverici haldır, ancaq insanı bir az da eqoizmə gətirib çıxara bilər. Əsas odur ki, bu sevgidən başgicəllənməsi olmasın. Çox şükür ki, bu sevgi məndə özünəvurğunluq yaratmayıb. Birincisi, istedadın olmalıdır. İstedadı heç kim heç kimə verə bilməz. İkincisi, təhsilin olmalıdır, bu sahənin elmini bilməlisən. Aktyorun uğur qazanması üçün istedad, zəhmətkeşlik və şans, bəxt olmalıdır. Bunlar birləşəndə aktyor uğur qazanır. Bir də xarizma şərtdir.

*– Xarizma demişkən, kinomuzda bir neçə tarixi obraz yaratmısınız. Tarixi obrazı uğurlu canlandırmaq üçün xüsusi bir formul varmı?*

– Birinci, dramaturji material, rejissor işi – bunların hamısı aktyorun uğur qazanmasına səbəb olan vasitələrdir. Bunlardan biri zəif olsa, aktyor uğurlu oynaya bilməz. Şansım onda gətirib ki, yaxşı əsərlərdə, yaxşı rejissor və yaxşı operatorlarla işləmişəm. Yəni uğurumun əsas səbəbkarları bu insanlar olub. Bir də sənətimə ciddi yanaşmışam. Bu gün də öyrənirəm. Bu gün mən yaxşı, dərin psixoloji bir filmə baxanda aktyorların oyunundan nələrsə öyrənirəm. Mənə belə gəlir ki, aktyor, ümumiyyətlə, hər bir sənətkar yaxşı öyrənməli və heç vaxt mən zirvədəyəm deməməlidir.

*– Mirzə Fətəli, Babək, Nəsimi, Cavid... Bu gün daha kimlərin obrazında çıxış etmək istəyərdiniz?*

– Yox, bilirsiniz biz aktyorlar ssenaridən asılıyıq. Teatrda belədir ki, aktyor klassik rol istəsə, rejissor o tamaşanı qoyur və aktyora da rol verir. Kino bir az fərqlidir. Mənim arzumla iş əmələ gəlmir. Mənim çox illərim boşa getdi. Filmlər çəkilmədi. Bizim o qədər qiymətli, tarixi şəxsiyyətlərimiz olub ki... Onları tamaşaçıya kino dili ilə təbliğ etmək lazımdır. Məsələn, bu gün biz Qələbə qazanmış bir xalq kimi igid oğullarımızın obrazlarını kinoya gətirməli, tarixi şəxsiyyətlərimizi həm gənclər, həm də dünyaya təbliğ etməliyik.

*– Bəzən aktyorlar "mənim rejissorum" ifadəsini işlədirlər. Sizin rejissorunuz kimdir?*

– Bu gün heç kim. Amma vaxtilə məni başa düşən və mənim başa düşdüyüm rejissorlar olub. Böyük ustadların öz komandası olur: sevdiyi, inandığı aktyor heyətini öz ətrafında cəmləyir. Həmfikir olmaq, həmahəng duyğular gözəl işlərin ərsəyə gəlməsinə şərait yaradır.

*– Müsahibələrinizdən birində deyirsiniz ki, Nəsimi obrazını rus dilinə dublyaj edən böyük rus aktyoru Vyaçeslav Tixonovla görüşünüzdə bu obrazın kinoda ilk işiniz olmasına inanmayıb...*



– O mənə həmin vaxt dedi ki, sən sanki bu obraza qədər xeyli filmə çəkilmisən. Mən dedim televiziya tamaşalarında rol almışam, nə qədər olmasa, kinoya yaxındır. Bu fikir onun böyüklüyündən idi. O özünün ilk rollarından danışıb mənim obrazımı səmimi şəkildə təhlil etmişdi. O, çox ziyalı bir insan idi.

*– Ümumiyyətlə, sovet kinematoqrafları ilə münasibətləriniz necə idi?*

– Tanışlıqlarımız var idi. Festivallarda tez-tez görüşürdük. Məsələn, Aleksandr Abdulov, Nikolay Karaçensovla görüşlərim olub. Smoktunovski ilə çəkilmişəm və "Özbəkfilm"də birgə çəkilişimizdə onun nə qədər sadə və səmimi bir insan olduğunu gördüm. Bir dəfə Sankt-Peterburqda filmə çəkilirdik. Onu qarşılamaq yaddan çıxmışdı. Özü taksi ilə çəkiliş meydançasına tapıb gəlmişdi. Bütün bunlar gənc aktyorların formalaşması üçün bir məktəb idi. "Özbəkfilm"də və digər kinostudiyalarda çəkiləndə həmişə böyük aktyorları müşahidə edib onlardan öyrənməyə çalışmışam.

*– Bu gün kinoda və teatrda bəyəndiyiniz artistlər varmı?*

– İstedadlı gənclərimiz var. Aktyor sənətini müəllimdən, kitabdan öyrənirsən. Bunu səhnədə və çəkiliş meydançasında nümayiş etdirməyə şərait olmalıdır. Ucuz seriallarda məktəb yoxdur. Bu gün aktyorun işi çox çətindir. Çünki internet dövrüdür: tamaşaçı dünyanın ən gözəl filmləri və istedadlı aktyorları haqqında məlumatlıdır. Onu təəccübləndirmək, inandırmaq üçün gərək həyatın özü qədər real olasan. Real olmaq üçün isə yüksək peşəkarlıq tələb olunur. Bugünkü tamaşaçını inandırmaq çox çətindir. Əvvəllər pafosla tamaşaçını ələ almaq mümkün idi. Sənətə gələn adam bilməlidir ki, istedadı olmalı və öz üzərində hər zaman çalışmalıdır.

*– Mütaliə edirsinizmi?*

– Bəli, 50 ildən çoxdur hər gecə iki səhifə oxuyub yatıram.

*– Ən çox kimləri oxuyursunuz?*

– Klassikləri sevirəm. Yaxşı şairlərimiz var. Ramiz Rövşən və digər müasirləri oxuyuram. Bəzən 30-40 il əvvəl oxuduğumu bu gün daha doğun başa düşürəm. Bu da yaşla əlaqəlidir yəqin...

*– Rəhbərlik etdiyiniz ittifaqda işlər necə gedir?*

– İttifaq yeni filmlərin premyeralarını edir, gənc rejissorların işinin müzakirəsini aparırıq. Yəni işimiz olur, amma əvvəlki kimi deyil. Şəraitimiz olmadığı üçün hazırda cari işlərlə məşğuluq. Çalışırıq ki, istedadlı insanları önə çəkək, film verilməsi ilə tövsiyə edək və s.

*– Son dövrdə iki kino ittifaqının birləşdirilməsi məsələsi gündəmə gəlmişdi...*

– Mənim fikrimcə, əlbəttə, bir ittifaq olmalıdır. Bu məsələyə, məncə, nə vaxtsa, baxılacaq və həll olunacaq.

*– Bu il kinomuz üçün əlamətdar tarixdir: Azərbaycan kinosunun, "Azərbaycanfilm"in və rəhbərlik etdiyiniz ittifaqın yubileydir. Bununla bağlı hər hansı layihələr gözlənilirmi?*

– Təbii ki, bu yubileylər münasibətilə müəyyən tədbirlərimiz olacaq. İndidən hansı gündə, harada olacağını deməyə çətinlik çəkirəm. Amma mütləq olacaq.

*– Bu il həm də Sizin yubileyinizdir...*

– Yubileyimi dostlarla, kiçik çevrədə qeyd edəcəyik.

**Lalə Azəri**

"Heydər Əliyev İli"

## Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

### İllərin xronikasından (23)

**1980-ci il 31 oktyabr**

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakıda keçirilən SSRİ yazıçılarının Ümumittifaq yaradıcılıq konfransının bağlanışında çıxış edib.

*"Yazıçılar öz əsərlərini yazıb qurtardıqda son nöqtəni qoyduqları kimi, biz də son nöqtəni qoymaq üçün bu gün buraya, gözəl "Gülüstan" sarayına toplaşmışıq...*

*Respublikamız üçün bu məclisin mühüm yekunu ondan ibarətdir ki, ölkəmizin, bütün qardaş respublikaların, habelə bir çox sosialist ölkələrinin və inkişaf etməkdə olan ölkələrin bütün ədəbiyyatlarının nümayəndələri bir həftəyə yaxındır Azərbaycandadır...*

*Ümumittifaq yaradıcılıq konfransı bizim üçün həm də böyük bayramdır, çoxdilli sovet ədəbiyyatının bayramıdır. Siz özünüz şahidi oldunuz ki, Azərbaycan torpağının hər yerində – Bakıda, respublikanın digər şəhərlərində və rayonlarında sizi necə sevinclə, necə böyük məhəbbətlə qarşılayırdılar... Ona görə ki, ucsuz-bucaqsız ölkəmizin hər yerində olduğu kimi Azərbaycanda da ədəbiyyata və onun ustadlarına haqlı olaraq böyük ehtiram vardır. Bədii söz böyük qüvvədir, hər bir adam bu qüvvənin güclü və nəcib təsirini duyur, hiss edir...*

*Konfransın həm də beynəlxalq əhəmiyyəti oldu. Onun işində sovet yazıçıları ilə yanaşı, bir sıra xarici ölkələrin ədəbi ictimaiyyətinin nümayəndələri – Avropa, Asiya və Latın Amerikası yazıçıları iştirak etdilər...*

*...Bütün bunlar təbii olaraq sevinc və razılıq hissləri doğurur. Xüsusi qeyd etmək istəyirəm ki, konfrans Azərbaycan yazıçılarının həyatında, respublikanın bütün mədəni həyatında böyük rol oynayacaqdır. Biz Azərbaycan sovet ədəbiyyatını daha da zənginləşdirmək, respublika zəhmətkeşlərinin vətənpərvərlik tərbiyəsini gücləndirmək üçün konfransın materiallarından bütün ideoloji işimizdə fəal istifadə etməyə çalışacağıq...".*

**1980-ci il 26 noyabr**

Heydər Əliyev Azərbaycan komsomolunun 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitq söyləyib. Nitqdə respublikada gənclərin yaradıcılıq fəaliyyətinin təşviq edilməsi, bu istiqamətdə mədəni-maarif ocaqlarının vəzifələrinə də toxunulub.

**1980-ci il 4 dekabr**

Heydər Əliyev respublikanın mədəniyyət xadimlərinə mükafatların təqdim olunması mərasimində nitq söyləyib.

*"SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə yüksək dövlət mükafatlarını təqdim etməyi mənə tapşırmışdır. Mən bu şərəfli vəzifəni böyük məmnuniyyətlə yerinə yetirirəm.*

*Ədəbiyyatın inkişafında böyük xidmətlərinə, səmərəli ictimai fəaliyyətinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Xalq şairi Rəsul Rzaya "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edilməklə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adı (SSRİ Ali Soveti Rəyasət Heyətinin 1980-ci il 16 may tarixli fərmanı ilə – red.) verilmişdir... Rəsul Rza Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. 30-cu illərin əvvəllərində yaradıcılıq fəaliyyətinə başlayan Rəsul Rza yarım əsr ərzində Azərbaycan ədəbiyyatının, Azərbaycan şeir sənətinin inkişafına böyük təsir göstərmişdir. Rəsul Rza yaradıcılığının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dünya ədəbiyyatının, inqilabi rus poeziyasının ən yaxşı nümunələrinin təsiri altında o, zəngin milli ədəbi ənənələrdən istifadə edərək, Azərbaycan poeziyasında bir novator kimi çıxış etmiş, Azərbaycan poeziyasını yeni bədii ifadə vasitələri ilə, yeni şeir formaları ilə zənginləşdirmişdir. Rəsul Rza klassik dünya ədəbiyyatının, klassik və müasir rus şeirinin ən yaxşı nümunələrini Azərbaycan dilinə tərcümə edərək bu sahədə də çox böyük xidmətlər göstərmişdir. Onun əsərləri SSRİ xalqlarının dilinə və xarici dillərə tərcümə olunmuşdur...*

*Səməd Vurğun adına Dövlət Rus Dram Teatrı Azərbaycanın mədəni həyatında mühüm yer tutur. Azərbaycan SSR Xalq artisti Sergey Yakuşev bu teatrın veteranlarından biridir. Teatr sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq o, "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdir. O, 50 illik yaradıcılığının təqribən 35 ilini Azərbaycandakı fəaliyyətinə sərf etmişdir. Bu müddətdə klassik rus və xarici ölkə dramaturqlarının pyeslərində, çoxmillətli sovet dramaturgiyası əsərlərində, o cümlədən Azərbaycan yazıçılarının pyesləri üzrə hazırlanan tamaşalarda yaddaqalan bir çox parlaq, unudulmaz surətlər yaratmışdır...*

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Zeynəb Xanlarovaya SSRİ Xalq artisti fəxri adı verilmişdir. Azərbaycan tarixində çox gözəl səsli, yüksək məharətli müğənnilər çox olmuşdur. Ancaq cəsarətlə demək olar ki, bizim dövrümüzdə Zeynəb Xanlarova öz gözəl səsi ilə, özünəməxsus istedadı, yüksək professional sənətkarlığı, ancaq onun özünə xas olan ifaçılıq tərzi ilə ifaçılıq sənətində yeni bir səhifə açmışdır... "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl", "Aşıq Qərib" operalarında baş qadın rollarında çox gözəl çıxış etməsi ilə yanaşı Zeynəb Xanlarova xalqımızın ən qədim və ən sevimli musiqi janrı olan muğamat səhnəsində, xalq mahnılarının ifasında da böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın müasir bəstəkarlarının yeni əsərlərinin yayılmasında onun böyük xidmətləri vardır... Başqa ölkələrdə, xüsusən Şərq ölkələrində çoxmillətli sovet mədəniyyətinin təbliğatçısı kimi də o, böyük fəaliyyət göstərir...*

*...Son illərdə bizim respublikamızda ədəbiyyat və incəsənət xadimlərinin böyük bir qrupu yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür. Qeyd etmək lazımdır ki, heç vaxt bizim mədəniyyət işçilərinin fəaliyyəti belə yüksək dərəcədə qiymətləndirilməmişdir. Bunlar hamısı respublikamızın mədəniyyətinin böyük nailiyyətlərinə sübut edir.*

*İzin verin, möhkəm əmin olduğumu bildirim ki, yüksək mükafatlardan ruhlanaraq, siz və respublikamızın bütün ədəbiyyat və incəsənət xadimləri mədəniyyətimizin daha da tərəqqi etməsi naminə bundan sonra da səmərə ilə çalışacaqsınız".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Tanınmış tərcüməçi Vilayət Hacıyev dünyasını dəyişib

Tanınmış tərcüməçi, filoloq-alim, pedaqoq Vilayət Hacıyev 2023-cü il aprelin 4-də, 73 yaşında vəfat edib.



Vilayət Tapdıq oğlu Hacıyev 1950-ci il aprelin 1-də Qazax rayonunun Sofulu kəndində anadan olub. 1966-cı ildə Qazax şəhər 1 saylı orta məktəbi bitirib və Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU) Avropa dilləri fakültəsinin alman dili şöbəsinə qəbul olunub. 1971-ci ildə təhsilini başa vurduqdan sonra bir il Daşkəsən rayonunda alman dili müəllimi işləyib. 1973-2017-ci illərdə Azərbaycan Dillər Universitetində çalışıb, Tərcümə fakültəsinin dekanı olub. Daha sonra Azərbaycan Dövlət Tərcümə Mərkəzində fəaliyyət göstərib.

Ömrünü ədəbi tərcüməyə həsr edən Vilayət Hacıyev alman dilindən Azərbaycan dilinə və əksinə tərcümə ilə məşğul olub. 70-ci illərin əvvəllərindən başlayaraq "Azərbaycan", "Ulduz", "Xəzər" jurnallarında, eləcə də "Ədəbiyyat və incəsənət" qəzetində bir çox alman və Avstriya yazıçılarının əsərləri onun tərcüməsində oxuculara çatdırılıb.

Onun tərcümələrində Erix Maria Remarkın "Zəfər tağı" (roman, 1986), Herman Hessenin "Yalquzaq" (roman, 1990), Lion Feyxtvangerin "Lautenzak qardaşları" (roman və hekayələr, 1991), Frans Kafkanın "Məhkəmə" (roman, 2012), Ziqfrid Lentsin "Məhəbbət yuvası" (hekayələr, 2013), Ştefan Svayqın "Tarixi miniatürlər" (2014), Haynrix Böllün "İki roman" ("Və bircə kəlmə də demədi" və "Bir təlxəyin düşüncələri", 2017), "Kişisiz ev" (roman, 2019), eləcə də "Kafkadan Rilkeyə qədər" (Avstriya yazıçılarının hekayələri, 2020), Daniel Keelmanın "Dünyanın arşını" (roman, 2021) və s. kitablar Azərbaycan dilində işıq üzü görüb.

Vilayət Hacıyev həmçinin Xalq yazıçıları Anar, Yusif Səmədoğlu və başqa müəlliflərin əsərlərini alman dilinə çevirib. O, H.Böllün "Kişisiz ev" romanının uğurlu tərcüməsinə görə 2019-cu ildə Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" mükafatına layiq görülüb. Avstriya-Azərbaycan mədəni əlaqələrinin inkişafında xidmətlərinə görə "Avstriyanın elm və incəsənət sahəsində I dərəcəli fəxri xaç" ordeni ilə təltif edilib.

Allah rəhmət eləsin.

# Zəfərə gedən yolun başlanğıcı



Aprelin 5-də Azərbaycan Hərb Tarixi Muzeyində "Aprel döyüşləri – Zəfərə gedən yolun başlanğıcı" adlı musiqili gecə təşkil edilib.

Muzey rəisi polkovnik Əzizağa Qənizadə, tədqiqatçı-baş elmi işçi Vahid İsmayılov və digər çıxış edənlər 2016-cı ilin Aprel döyüşlərinin hərb tariximizdəki yerindən söz açıblar.

Qeyd olunub ki, dördgünlük döyüşlərdə (2-5 aprel) Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, həmçinin Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olunaraq, erməni işğalçılarının keçilməz səngərləri haqqında uydurulan mif alt-üst edildi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərdi, Azərbaycan vətəndaşının hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi.

Bədii hissədə Həzi Aslanov adına Ordu İdeoloji iş və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi-vətənpərvərlik mahnıları səsləndirilib. Sonra Aprel döyüşlərinə həsr edilmiş sənədli film nümayiş olunub.

# Kuklaçı rəssam ömründən qalanlar

Aprelin 10-da Əməkdar rəssam, uzun illər A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının bir çox tamaşalarında nağıl qəhrəmanlarının obrazlarının eskizlərini hazırlamış Solmaz Musayevanın (1928-2016) anadan olmasının 95-ci ildönümü tamam olur.



Solmaz Musayeva 1947-52-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin, sonra isə V.Muxina adına Leninqrad Ali Rəssamlıq Məktəbinin Dekorativ-tətbiqi sənət fakültəsində təhsil alıb. 1965-81-ci illərdə teatrda quruluşçu rəssam, 1981-87-ci illərdə baş rəssam kimi çalışıb.

Solmaz Musayeva Azərbaycanda istehsal olunan ilk kukla cizgi filmlərinin rəssamı kimi də tanınır. Bu filmlərdən bir neçəsi keçmiş sovet dönəmində ümumittifaq televiziya filmləri festivallarında mükafatlandırılıb. "Göyçək Fatma" cizgi filmi Gürcüstan Rəssamlar İttifaqının xüsusi diplomuna layiq görülüb. 1987-ci ildən etibarən fərdi yaradıcılıqla məşğul olan Solmaz xanımın Azərbaycanın müxtəlif bölgələrinə aid geyimləri əks etdirən yüzlərlə etnoqrafik suvenir kuklası Azərbaycanın və xarici ölkələrin muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Rəssamın 2006-cı ildə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə yaratdığı kompozisiyasının UNESCO-nun qərargahında sərgilənməsi olduqca qürurverici faktdır. O, 1993-cü ildə Pakistanda keçirilən Şərq ölkələrinin tətbiqi sənət üzrə festival-müsabiqəsinin də laureatı olub.

S.Musayeva 2007-ci ildə respublikanın "Əməkdar rəssam"ı fəxri adına layiq görülüb. 21 oktyabr 2016-cı ildə dünyasını dəyişib.

Sənətkarın yaradıcılığını əks etdirən nümunələrin bir qismi C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondunda saxlanılır.

# Gələcəyə baxış keçmişə nəzərdən başlanır

Həyat bir sınaq, mübarizə meydanı, eyni zamanda özünü əməlinlə təsdiqləmək, öhdənə düşən vəzifəni layiqincə yerinə yetirmək, işini sevə-sevə, peşəkarcasına görməkdir. Hər bir peşənin peşəkarı olmaq da hər insana nəsib olmur. İşinə bağlı, peşəsinin vurğunu olmaq insanı hər zaman yaşadır. Onlar bu dünyadan köçəndən sonra da yaddaşlarda, xatirələrdə yaşayırlar, əməlləri ilə gələcəyimizə örnək olurlar. Bunu tanıdığımız, haqqında eşitdiyimiz insanların timsalında görmək mümkündür.

Müdriklərin belə bir sözü var: "Keçmişini bilmədən gələcəyini doğru-düzgün qura bilməzsən". Keçmişini unutmaq tədricən yox olmaq deməkdir. Tariximizin yadigarlarını öyrənmək, mühafizə və təbliğ etmək bir vətəndaşlıq borcudur. Buna peşə vurğunluğu əlavə olunarsa, vətənə sevgi ilə dolu bir ömür yolu başlanır. Bu ömür yolunu yaşayanlar da hər zaman bizimlə birlikdə olurlar, sağlığında zəhmətlə, sevgi ilə əldə etdikləri, özlərindən sonra qoyub getdikləri hər nə varsa, əbədi qalır. Əsas odur ki, bu yadigarları göz bəbəyi kimi qoruyub saxlayasan, gələcək nəsillər üçün çatdırasan. Keçmişə ehtiram hissi ilə bu böyük məsuliyyətlə gələcəyə doğru addımlayasan, özündən sonra bir iz qoyasan.

Sadaladığım bu keyfiyyətlər Əməkdar mədəniyyət işçisi Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yaradılmasında müstəsna əməyi olmuş, qırx ilə yaxın muzeyə rəhbərlik etmiş Xalis



Məmmədovun (1946-2021) şəxsiyyətində tamamilə təzahürünü tapmışdı. Bu gün onun sevgi-məhəbbətlə topladığı, 1979-cu ildən əldə edərək bu günümüzə ərməğan etdiyi hər nə varsa, yaşı qədim və əziz. Vətənimiz Azərbaycanın bir parçası olan Qəbələdə belə gözəl bir təşəbbüsü gerçəkləşdirmək, tariximizi yaşadan əşyaları toplayıb bu muzeydə cəm etməklə o, xalqa, dövlətə böyük fayda verdi. Onun gördüyü işlərə və bu günə tarixi irs kimi yadigar qalan muzey materiallarına diqqət yetirdikcə işinə nə qədər bağlı olduğunu aydın şəkildə görürük. Muzeyin fondunda mühafizə edilən 13 869 ədəd tarixi nümunənin bir araya gəlməsi onun əməyinin bəhrəsidir. Əməklə bərabər tariximizə olan sevgi, maraq və dəyər də açıq şəkildə görünməkdədir. Hər bir eksponatın yaşı, təyinatı və s. bu amillər onu deməyə əsas verir ki, Xalis Məmmədov işinin peşəkarı olub.

Onun peşəkarlığı özü həyatda olmasa belə aydın şəkildə görünür. Yaşadığı illər ərzində ailə həyatı qurmayıb bütün ömrünü muzey işinə sərf etməklə bu gün bizim üçün, gələcək üçün tarixi xəzinə qoydu. Kəndbəkənd gəzərək tarixi əşyaları toplamaqla, maraq doğuran



təbii daşları, ağacları muzeyə gətirməklə fondu zənginləşdirdi. Bu gün Xalis müəllim həyatda olmasa da, onun ömrü hər bir eksponatda tarix kimi yaşayır. Onun mənalı ömrü bir tarixə çevrilərək hər bir muzey işçisinin, o cümlədən mənim yaddaşımda dərin iz qoyub. Müxtəlif illəri əhatə edən əşyalarının hər birinin qədimliyi ilə bərabər eksponat olaraq muzeyə bağışlanılması da maraqlı hekayəni xatırladır. Bir sözlə, bu zəngin tarixi yadigarların mühafizə edildiyi muzey əsl xəzinədir.

Tariximizi, milli adət-ənənələrimizi yaşadan, gələcəyimizə zəngin xəzinə olan Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi bir sənət məbədidir desəm, yanılmaram. Biz də tariximizi sevərək, milli adət-ənənələrimizin qorunması, yaşadılması, Azərbaycanın qədimliyinin nişanəsi olan hər nə varsa gələcək nəsillərə çatdırılması işində Xalis Məmmədov yolunu layiqincə davam etdirməklə böyük məsuliyyət hiss edir, onun zəhmətlə bir araya gətirdiyi tarixi-mədəni sərvətlərimizi yaşatmaqdan şərəf duyuruq.

Xalis Məmmədovun Azərbaycan tarixinə sıx bağlılığını, işinə nə qədər vurğun olduğunu onun əməlində görürük. Gələcəyə doğru istiqamət keçmişə nəzərdən başlanır.

**Bəxtiyar Vəliyev**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru**

# Naxçıvan səhnəsinin 140 illik işığı

## "Uzaq-yaxın səhnədaşlar"

Peşəkar teatrımız bu il 150 illik yubileyini bayram edir. Bu böyük və zəngin tarixə nəzər salmaq üçün "Mədəniyyət" qəzeti olaraq müxtəlif rubrikalarla yubiley təqvimini daha da yaddaqalan etməyə çalışacağıq. Bu sayımızdan etibarən "Uzaq-yaxın səhnədaşlar" rubrikası altında bölgə teatrlarının tarixi və hazırkı fəaliyyətinə nəzər salacağıq. İlk olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrından başlayırıq.



Əlimdə çoxdan saralmış kiril əlifbalı nadir və vacib bir kitab var: "Azərbaycan teatrının salnaməsi". Bu kitabı hər vərəqləyəndə qəribə bir həyəcan, zaman səyahəti, keçmişlə izahsız rabitə yaşayıram. Qəribə səslənəcək, amma elə bilirəm ki, o tarixdə mən də ruhən məhz oradayam. Təsəvvür edirsiniz, xurafatın, bərabərsizliyin, savadsızlıq və kütləvi məişət düşüncəsinin içində çapalamaq istəməyən bir qrup teatr adlı unikal, müqəddəs və həm də çətin bir işin qulpundan yapışıb əbədi bir sənət yolu açırlar. Asan olur, ya çətin? Bax, bunu az-çox milli teatrımızın tarixini oxuyub izləyən hər kəs bilir... Ehtiram və sevgi ilə andığımız böyük səhnə yolumuzun yoldaşlarından bəziləri də peşəkar Azərbaycan milli teatrından onca yaş kiçik Naxçıvan teatrının əsasını qoyub, inkişafına nail olublar.

Bu gün özünün 140 illik yubiley təntənəsinə hazırlaşan Naxçıvan Dövlət Milli Dram Teatrının təməl prinsipi, sözsüz ki, maarifçilik və xalqı yüksək sənət zövqü ilə təmin etməkdir. Yerli ziyalıların 140 il öncəki müqəddəs səyləri sonradan zəngin bir tarixin başlanğıcı olur. Gəlin, fakta birgə nəzər salaq: "Hacı Nəcəf Zeynalovun evində Eynəli Sultanovun idarəsi altında "Müsyö Jordan və dərviş Məstəli şah" oynanılmışdır. 11 mart, 1883-cü il, Naxçıvan"...

Sözsüz ki, bu da elə-belə deyildi. XIX əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Naxçıvanda ilk dəfə yeni üsullu milli məktəblərin açılması, kitabxana yaradılması və bu kimi, mütərəqqi addımların atılması bölgədə mədəni tərəqqi üçün münbit şərait yaradırdı. Beləcə, bir qrup ziyalı Naxçıvan şəhərində teatr yaratmağa təşəbbüs göstərir. Onlar Azərbaycan milli peşəkar teatrının yaranmasının 10 illiyini böyük təntənə ilə qeyd etmək üçün şəhərin tanınmış və nüfuzlu ziyalılarından olan Hacı Nəcəf Zeynalovun evini münasib bilərək burada yubiley gecəsi keçirir. Məhz həmin gün Naxçıvan teatrının təməli olan, gələcək inkişaf yolunu təyin edən tamaşa oynanılır. Böyük səhnəyə gedən yolun ikinci sədası da 1887-ci ilin 2 sentyabrında eşidilir. Müəllim, yerli ziyalı Mirzə Sadıq Qulubəyovun rəhbərliyi ilə M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyası oynanılır. Özü də bu tamaşanı böyük dramaturqumuz Cəlil Məmmədquluzadə və Əlimməmməd Xəlilov hazırlayırlar. Elə əsas rollardan birini də böyük mirzəmiz özü ifa edir.

1883-1890-cı illər arasında Naxçıvan şəhərində hər il 3-4 tamaşa hazırlanıb. Teatrşünas, sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin Naxçıvan teatrının tarixi ilə bağlı məqalələrini oxuyarkən görürük ki, yerli teatr həvəskarları müxtəlif janr və üslublu tamaşalar hazırlayaraq zaman üçün cəsarət tələb edən mövzuları da səhnənin imkanları ilə diqqət mərkəzinə gətirə biliblər.

XX əsrin əvvəllərinə kimi həvəskarlar fərqli repertuar tərtib edərək tamaşalarını Naxçıvan şəhəri ilə yanaşı, ətraf rayonlarda da həvəslə göstəriblər. Bu tendensiya yeni dram dərnəklərinin də yaranmasına təkan verib və 1917-ci ildə "El güzgüsü" (rəhbəri Rza Təhmasib) və "İmdad" dram dərnəkləri yaradılıb. 1912-1917-ci illərdə Naxçıvan səhnəsində "Müsyö Jordan və dərviş Məstəli şah", "Pəri cadu", "Dağılan tifaq", "Bəxtsiz cavan", "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Nadir şah", "Ölülər", "Məşədi İbad", "Arşın mal alan", "Evlikən subay" və digər tamaşalar yerli həvəskarlar və Naxçıvana qastrola gələn Bakı və Tiflis teatrlarının aktyorları tərəfindən nümayiş olunub.

Doğrudur, son illər repertuarında tarixi əsərlər üstünlük təşkil etsə də, yaradıcı heyət janr müxtəlifliyini qoruyub saxlamağa da səy göstərir. Hazırda kollektiv K.Çapekin "Ana", H.Cavidin "Topal Teymur", N.Qoqolun "Müfəttiş", Elçinin "Teleskop", İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" və s. əsərləri nümayiş etdirir.

Tamaşaların quruluş heyətinə nəzər yetirdikdə maraqlı mənzərə hasil oldu. Belə ki, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanan səhnə əsərlərindən yalnız birinin rejissoru teatrda çalışır, gənc Həcərxanım Məmmədova. Onun quruluşunda "Teleskop" və "Ana" əsərləri hazırlanıb. Digər tamaşaların rejissorları isə Xalq artisti Kamran Quliyev ("Topal Teymur" və "Müfəttiş"), Əməkdar artist Tofiq Seyidov ("Xurşidbanu Natəvan") dəvətlidirlər. Teatrdan bildirildi ki, kollektivdə yetərincə aktyor olsa da, peşəkar rejissor baxımından sıxıntı var. Quruluş heyətində ixtisas sahibi yalnız H.Məmmədovadır.



Ümumiyyətlə, XX əsrdə Naxçıvan teatrı özünəməxsus ənənələrini formalaşdırmağa nail olub, peşəkar səhnəni tamaşaçılara sevdirib. Bu dövrdə teatrın səhnəsində Azərbaycan və dünya klassiklərinin pyesləri tamaşaya qoyulub, xüsusilə 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində ölkəmizdə baş verən ictimai-siyasi proseslərə biganə qalmayıb. Sənət ocağı 1923-cü ildə "dövlət dram teatrı", 1964-cü ildə "dövlət musiqili dram teatrı", 2022-ci ildə "dövlət milli dram teatrı" statusları ilə 140 yaşını haqlayıb.

Bu il may ayının 11-də həm 140 yaşını, həm də "dövlət teatrı" statusu almasının (1923) 100 illiyini qeyd edəcək teatr bu gün də tamaşaçı auditoriyasını qoruyub saxlamaq üçün maraqlı repertuar təyin etməyə çalışır.

Hazırda paralel üç tamaşanın məşqləri gedir. Bunlar Xalq artisti K.Quliyevin quruluş verdiyi "Xilaskar" (Aqşin Babayev), H.Məmmədovanın rejissorluğu ilə "Lənkəran xanının vəziri" (M.F.Axundzadə) və muxtar respublikanın Əməkdar artisti Səməd Canbaxşiyevin rejissoru olduğu M.Ü.Görgülünün "Cibimizdəki dəlilik" əsərləridir.

Müxtəlif səbəblərdən uzun illərdir Naxçıvan teatrının ölkənin paytaxtı və digər şəhərlərində fəaliyyət göstərən teatrları ilə əlaqələri zəifləyib. Teatr ölkə səviyyəsində keçirilən festivallarda və digər tədbirlərdə demək olar ki, fəal iştirak etmir. Ümid edirik ki, son aylar Naxçıvanda baş verən ictimai-siyasi yeniliklər bu sahəyə də təsirsiz qalmayacaq...

**Həmidə Nizamiqızı**

# İplər kimin əlindədir?

## Sumqayıt teatrının “Müsyö Jordan və dərviş Məstəli şah”ı haqqında



1968-ci ildə yaradılan Sumqayıt Dövlət Dram Teatrı 55 illik yubileyində tamaşaçılara baş rejissor Firudin Məhərrəmovun quruluşunda Mirzə Fətəli Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah” komediyasını təqdim etdi. Sumqayıt teatrı ilk dəfə tamaşaçıların görüşünə məhz bu əsərlə (1969-cu ilin 14 martında) gəlmişdi...

Firudin Məhərrəmov Sumqayıt Dövlət Dram Teatrında bu günə kimi bir çox klassik və müasir əsərlərə səhnə quruluşu verib. İlk dəfə 90-cı illərin sonunda səhnələşdirdiyi “Müsyö Jordan və dərvişi Məstəli şah”da rejissor insanların şeytanlar tərəfindən idarə edilməsini, şeytanların əmr və göstərişlərinə insanların müticəsinə boyun əyməsini maraqlı səhnə yozumu ilə tamaşaçılara təqdim edir. Şeytanların alçaq xislətini və insanlara əzab verməkdən duyduqları mənəvi həzzi tamaşaçıya çatdırmaq üçün rejissor səhnənin mərkəzində rəngarəng pərdə və işıqların “çılğın və dəlisov rəqs”ini qurur. Bundan başqa, Firudin Məhərrəmov tamaşada kişi obrazlarını arxa, qadın qəhrəmanları isə ön planda təqdim edərək, nəinki kişilərin, hətta dünyanın ipinin qadınların əlində olduğunu özünəməxsus tapıntıları ilə tamaşa boyu inkişaf etdirir.

Pyesdə hadisələr Novruz bayramında, Qarabağda cərəyan edir. Əsərdə avamlıq, cəhalət, savadsızlıq, cahillik, nadanlıq kimi hallar gülüş obyektinə çevrilir. Hadisələr zahirən gülüş doğursa da, müəllif insanları ayıltmağa çalışır, dünyadakı inkişafı Müsyö Jordanın gəlişi ilə onlara xəbər verir. Müsyö Jordanın Qarabağa gəlməsi təsadüfi deyildi. Mirzə Fətəli dövrünün tanınmış, savadlı və uzaqgörən şəxsiyyəti idi. O, şəhər və kəndlərdə yaşayan insanların vəziyyətindən xəbərdar idi. Mirzə bilirdi ki, kəndlərdə vəziyyət şəhərə nisbətən daha acınacaqlıdır. Ona görə də o, bir tərəfdən Müsyö Jordanı Qarabağda təsvir edir, digər tərəfdən də Qarabağdakı ab-havanı Şəhrəbanu xanımın “dili” ilə tamaşaçılara çatdırır. Müsyö Jordan həkim-alimdir. O, müalicəvi otlarla bağlı araşdırma aparmaq üçün Azərbaycana gəlib. Qarabağ nadir bitkilərlə zəngin bir yer olduğuna görə dramaturq hadisələri orada təsvir edir. Beləliklə, Mirzə Fətəli Müsyö Jordanın diliylə Avropadakı, Şəhrəbanunun diliylə isə Qarabağdakı vəziyyəti tamaşaçılara çatdırır.

Rejissor bu məqamları daha qabarıq və dərindən tamaşaçılara çatdıra bilmək üçün hər iki obraza xüsusi yanaşıb, onların simasında Şərqlə Qərbi qarşılaşdıraraq hər iki cəmiyyətdəki düşüncə və fikirləri, mədəni səviyyə və dünyagörüşü müqayisə edib.

Firudin Məhərrəmov səhnədə Hətəmxan ağa və Şahbaz bəy obrazlarına xəsisliklə yanaşaraq hər iki obrazı əsas qəhrəmanların öz məqsədlərini həyata keçirmələrinin başlıca “səbəbkarı” kimi təqdim edib. Əgər Şahbaz bəy





Parisə getmək fikrinə düşməsəydi Şəhrəbanu xanım bu qədər canfəşanlıq etməz, bütün “ağbirçək” qadınları başına toplayıb, Parisi “partlatmaq” xəyalına düşməzdi. Bu səhnədə dramaturq parisli qadınların həyasızlığını qabardır, onların kişilərlə “üzüaçıq oturub söhbət etmələri”ni, kişilərin “ağıllarını başlarından aldıqlarını” ortaya ataraq Şəhrəbanu xanımın əlinə fürsət verir. Şəhrəbanu xanım Müsyö Jordandan qisas almağın yollarını axtararkən parisli qadınların bütün bu bəlalara səbəb olduğunu əsas gətirərək, onların yerli-dibli köklərini kəsməyin ən düzgün qərar olduğu qənaətinə gəlir və dərviş Məstəli şahdan Parisi dağıtmasını istəyir.

Tamaşada Şəhrəbanu xanım obrazını Əməkdar artist Fəranə Musayeva ifa edir. Onun Şəhrəbanusu fransalı qonağa əslində kinayə ilə yanaşır, ancaq qarabağlı qadınların şanını ucaltmaq xatirinə qonaqpərvərliyini yalançı “təbəssümlə” parisli həkimə nümayiş etdirir. Əri Hətəmxan ağanın Şahbaz bəyin Parisə getməsini normal qəbul etməsini həzm edə bilmir, bu işə əncam çəkməyin yollarını axtarır. Şəhrəbanu məqsədinə nail olmaq üçün kələk işlədərkən də özünü ağıllı, çoxbilmiş, səxavətli qadın kimi göstərməyə çalışır. Məstəli şahın işin qarşılığında alacağı pulu eşidəndə isə qəzəbindən gözləri bərəlir, Parisin partlamasına görə bu qədər pulundan keçməyinə “yanıb-yaxılır”. Fəranə Musayeva özünəməxsus oyun tərzi ilə Şəhrəbanu xanım obrazını şirin, baməzə, nazlı, eyni zamanda avam, cahil, dünyadan tamam bixəbər qadın təəssüratı ilə tamaşaçılara təqdim edir.

Tamaşada ən maraqlı və gülüşdoğuran səhnələr Şəhrəbanu xanımla müsyö Jordanın üz-üzə gəldiyi məqamlarda üzə çıxır. Müsyö Jordanı teatrın sevilən aktyoru Oqtay Mehdiyev oynayır. O, obrazdan-obraza dəyişməyi ustalıqla bacaran aktyordur. Onun ifasındakı parisli həkim duzlu, məzəli, incə ruhludur. Tamaşa zamanı Şahbaz bəy səhnədə vəhşi at kimi o baş-bu başa vurnuxub, əlindəki çomaqla yerin-göyün altını üstünə gətirəcək gücə sahib bir qarabağlı kişi olduğunu sübut edirdisə, parisli həkim öz incə hərəkətləri, oturuşu-duruşu ilə onun tamamilə əksini tamaşaçılara təqdim edir. Müsyö Jordan qadınlarla oturub söhbət edərkən də onlardan daha incə, zərif, həssas, yumşaq təbiətli bir məxluq olduğunu göstərməkdən çəkinmir, əksinə, qarabağlı qadınların kişilər kimi vüqarlı görünüşünə heyranlıqla tamaşa edir. Oqtay Mehdiyev qəhrəmanını tez-tez komik vəziyyətə salır, ondakı qadınlara məxsus incəliyi, nəzakəti özünəməxsus boyalarla “tənqid edir”.

Müsyö Jordan Paris mədəniyyətini və insanlarının obrazını səhnədə simvolik olaraq təqdim edirsə, Şahbaz bəylə Hətəmxan ağa qarabağlı, azərbaycanlı kişilərin nümunəsi kimi təsvir olunub. İstər Hətəmxan ağa, istərsə də Şahbaz bəy ağır oturuş-duruşları, qadınlar üzərindəki hökmranlıqları ilə səhnədə diqqəti cəlb etməyə çalışırlar. Şahbaz bəy həmçinin Parisə gedərək dil öyrənməyin vacibliyini, bir neçə dil bilsə də, bunların azlıq etdiyini nişanlısı Şərəfnisə xanıma söyləyir. Şərəfnisə xanım heç cürə nişanlısı Şahbaz bəyin Parisə getməyini istəmir. Buna da səbəb Parisdə qadınların kişilərlə birlikdə üzüaçıq oturub, söhbət edib, əylənməsidir. Əgər Şahbaz bəy dil öyrənmək istəyirsə, Parisə yox, Tiflisə gedə bilər. Bu təklifə də Şahbaz bəy heç cürə razı deyil, çünki fransız dilini ən yaxşı Parisin özündə öyrənmək olar.

Şahbaz bəy aktyor Cəlal Məmmədovun ifasında dəliqanlıdır, gözütoxdur, igiddir, qorxmazdır. Eyni zamanda tərbiyəli və mədənidir, özünü inkişaf etdirməyə çalışır, çünki başa düşür ki, dünya artıq onların ağıllarına gəlməyəcək qədər inkişaf edib. Şahbaz bəy isə Qarabağda otura-otura tamamkamal inkişafdan geri qalıb. O, Şərəfnisəni çox sevir, buna baxmayaraq, özünün inkişafını da hər şeydən vacib hesab edərək, dünyanı gəzib-dolaşmaq istəyir.

Vəfa Qurbanovanın oynadığı Şərəfnisə dəcəl, şıltaq və eqoistdir. Şahbazın istəyini ürəyində qoyub, Parisin “altını-üstünə” çevirmək istəyir. Yaşına yaraşmayan hiyləbazlıq və ədabazlığı var. On altı yaşlı Şərəfnisə Şahbazın sözünə məhəl qoymadan anasıyla birləşib müsyö Jordanın vilayətinə od qoymaqla, parisli qadınları “cəzalandırırlar”.

Aktyor İlham Səfərli dərviş Məstəli şahı maraqlı çalarlarla canlandırır. O, qara geyimdə səhnədə dəli kimi o baş-bu başa qaçır, tez-tez göyə atıla-atıla səhnə boyu qadınlara nə qədər güclü sehrbaz, cadükün, falçı olduğu fikrini sırımağa çalışır. Rejissor dərviş Məstəli şahın hiyləgərliyini, pis niyyətini tamaşaçılara daha aydın göstərmək üçün onu gülünc vəziyyətdə – uzun saqqalda, bərəlmiş gözlərilə tez-tez ətrafı seyr edən halda səhnə boyu kukla kimi oynadır. Dərviş Məstəli şah özü də düşdüyü vəziyyətdə çaşqındır, nə edəcəyini tam kəsdirə bilməsə də, Parisi mütləq dağıtmalıdır. Özü öz dediyinə inanmadığı halda bu avam qadınların onun ağzından çıxan hər sözü acgözlüklə içlərinə çəkmələrinə gülür. O həm də şorgöz və tamahkardır. Qadınların pullarını almaqla kifayətlənməyib, onlara tamahla, ehtirasla nəzər salıb, bəhanə tapdıqca onlara yaxın oturur. Şəhrəbanu xanımla dərviş Məstəli şah səhnəsi tamaşanın kulminasiya nöqtəsidir. Bu səhnədə Şəhrəbanu xanımın cahilliyi, avamlığı, savadsızlığı, dərviş Məstəli şahın isə hiyləgərliyi, namussuzluğu bütün çılpaqlığı ilə tamaşaçılara təqdim edilir.

Firudin Məhərrəmov tamaşanı əvvəldən sona kimi gülüş, məsxərə janrı üzərində qurub, kişilərin “ipinin” qadınların əlində olmasını səhnə boyu simvolik olaraq da göstərmək üçün hər qadının əlinə bir ip verib. Qadınların ipi isə rejissorun fikrincə, şeytanların əlindədir. Qadınlar hara gedirsə, tamaşa boyu şeytan da onları izləyir.

Firudin Məhərrəmov tamaşanın səhnəqrafiyasını pərdələrin köməkliyi ilə həll edərək, həmçinin pərdələrdən otaqlara giriş-çıxış qapısı kimi də istifadə edib. Şeytanlar, əcinnə və cinlər səhnədə rəqs edərkən həmin pərdələr də onların rəqslərinə uyğunlaşdırılaraq səhnə boyu enib-qalxır, dəniz kimi gah coşaraq dalğalanır, gah da yavaş-yavaş geri çəkilirdi. Pərdələr həmçinin qəhrəmanların gizlənmək üçün istifadə etdikləri vasitəyə çevrilir, Şəhrəbanu xanım dərviş Məstəli şahı tamaşanın sonunda həmin pərdənin arxasında gizlədərək, heç kimin görməməsinə nail olur.

Rejissor tamaşanın geyim məsələsində millilik ruhunu qoruyub saxlayıb, ornamentlərlə zəngin milli geyimlərdən istifadə edib. O, müsyö Jordanı da fransız milli geyimində səhnəyə çıxardaraq, hər iki millətin özünəməxsus geyim və adət-ənənələri mövzusuna həssaslıqla yanaşıb. Eləcə də tamaşanın musiqi həllində də quruluş müəllifinin milli köklərə dayanan xalq musiqi parçalardan yerində istifadə etməsi qeyd olunmalıdır.

**Tamilla Əliyeva**
**teatrşünas**

## Xatirə təqvimi — 8–11 aprel

### Azərbaycan

**8 aprel 1956** – Əməkdar artist, tanınmış müğənni, bəstəkar Yaqub Zurufçu (1956 – 14.9.2021) Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olub.

**8 aprel 2021** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Məhərrəm Əlisəftər oğlu Bədirzadə (13.1.1945 – 2021) vəfat edib.

**8 aprel 2022** – Əməkdar elm xadimi, akademik, tanınmış etnoqraf Teymur Əmiraslan oğlu Bünyadov (20.1.1928 – 2022) vəfat edib.

**9 aprel 1905** – Şair, ədəbiyyatşünas, tərcüməçi Cəfər Rəmzi (Cəfər Balaəmi oğlu İsmayılzadə; 1905 – 11.09.1996) Bakının Mərdəkan kəndində doğulub. Azərbaycan ədəbiyyatında işlədilən ərəb, fars sözləri lüğətinin tərtibçisidir.

**9 aprel 1931** – Əməkdar incəsənət xadimi, teatrşünas, sənətşünaslıq doktoru, professor Rahib Abuzər oğlu Hüseynov (1931 – 5.5.1994) Bakıda doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun rektoru olub.

**9 aprel 1946** – Tanınmış aktyor və rejissor Ceyhun Cəmil oğlu Mirzəyev (1946 – 5.3.1993) Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub. “Ögey ana”, “Dəli Kür”, “Yenilməz batalyon” və s. filmlərdə çəkilib. “Fəryad” filminin rejissoru və baş rol ifaçısıdır.

**9 aprel 2000** – Bakıda, Şəhidlər xiyabanında 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gəlmiş və burada şəhid olmuş türk əsgərlərinin xatirəsinə ucaldılan abidənin açılışı keçirilib.

**10 aprel 1923** – Yazıçı-dramaturq Salam Dadaş oğlu Qədirzadə (1923 – 16.11.1987) Bakıda anadan olub. “46 bənövşə”, “Sevdasız aylar”, “Sən olmasaydın” və s. nəsr əsərləri, “Şirinbala bal yığır”, “Hardasan, ay subaylıq?”, “Həmişəxanım” komediyalarının müəllifidir.

**10 aprel 1928** – Əməkdar rəssam Solmaz Qurban qızı Musayeva (1928-2016) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrında quruluşçu rəssam və baş rəssam işləyib.

**10 aprel 1930** – Tanınmış dilçi alim, filologiya elmləri doktoru, professor Musa İsrafil oğlu Adilov (1930-1996) Quba rayonunda anadan olub.

**10 aprel 1939** – Xalq artisti, xanəndə Teymur Ağaxan oğlu Mustafayev (1939 – 11.6.2020) Cəlilabad rayonunda doğulub. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**10 aprel 1979** – Əməkdar mədəniyyət işçisi, aşıq Şakir Şahverdi oğlu Hacıyev (1922-1979) vəfat edib.

**10 aprel 2012** – Prezident İlham Əliyev görkəmli yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında sərəncam imzalayıb.

**10 aprel 2019** – Prezident İlham Əliyev Azərbaycan ictimai fikrinin tanınmış nümayəndəsi, publisist, şərqşünas Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**11 aprel 1854** – Yazıçı, dramaturq, publisist Nəcəf bəy Vəzirov (1854 – 9.7.1926) Şuşada anadan olub. Bəzi mənbələrdə doğum günü kimi 2, 7 aprel də göstərilir. “Müsibəti-Fəxrəddin” pyesi ilə Azərbaycan dramaturgiyasında faciə janrının əsasını qoyub. “Ev tərbiyəsinin bir şəkli”, “Yağışdan çıxdıq, yağmura düşdük” və s. komediyaların müəllifidir.

**11 aprel 1908** – Məşhur paleontoloq alim, akademik Musa Mirzə oğlu Əliyev (1908-1985) Şamaxı şəhərində doğulub. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti (1950-1958) olub.

**11 aprel 1934** – Əməkdar mədəniyyət işçisi, fotojurnalist, Yaşar Xəlilov (1934-2018) Bakıda doğulub. Beş olimpiadanı (1972-1988) işıqlandırmış yeganə azərbaycanlı jurnalistdir.

**11 aprel 1998** – Bakıda böyük Azərbaycan şair Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illiyi qeyd edilib.

### Dünya

**8 aprel 1692** – İtaliya bəstəkarı Cüzeppe Tartini (1692-1770) anadan olub. “Şeytan sonatası” (“Sonate du diable”) ilə məşhurluq qazanıb.

**8 aprel 1859** – Alman filosofu, fenomenologiyanın banisi Edmund Husserl (1859-1938) anadan olub.

**8 aprel 1973** – Dünya şöhrətli ispan rəssamı, heykəltəraş Pablo Pikasso (Pablo Ruiz Picasso; 25.10.1881 – 1973) vəfat edib. Kubizm cərəyanının banilərindən biridir. Məşhur əsərləri: “Avinyonlu qızlar”, “Gernika”.

**9 aprel 1821** – Fransa şairi və ədəbiyyatşünası Şarl-Pyer Bodler (Charles Pierre Baudelaire; 1821-1867) anadan olub.

**9 aprel 1906** – Amerikalı bəstəkar və dirijor Antal Dorati (1906-1988) anadan olub.

**9 aprel 1933** – Fransız aktyoru Jan Pol Belmondo (Jean-Paul Belmondo; 1933 – 6.9.2021) anadan olub. Filmləri: “Son nəfəsdə”, “Missisipidə həyəcan”, “Professional” və s.

**10 aprel 1847** – Amerika jurnalisti, naşir Cozef Pulitser (Joseph Pulitzer; 1847-1911) anadan olub. Jurnalistika aləmində məşhur Pulitser mükafatının təsisçisidir.

**10 aprel 1932** – Misir və Amerika aktyoru Ömər Şərif (əsl adı Mişel Demetri Şalhub; 1932 - 10.7.2015) İsgəndəriyyə şəhərində doğulub. Filmləri: “Ərəbistanlı Lourens”. “Çingiz xan”, “On üçüncü döyüşçü” və s.

**10 aprel 1937** – Tatar əsilli rus şairəsi Bella Axmadulina (1937-2010) anadan olub. “Titrəmə”, “Musiqi dərsləri”, “Çovğun”, “Şam”, “Bağ” və s. poetik topluların müəllifidir.

**11 aprel 1894** – Məşhur sirk ustası, illüzionist, Rusiyanın Xalq artisti Emil Kio (Qirşfeld-Renard; 1894-1965) anadan olub.

**11 aprel 1914** – Kanada kinorejissoru və rəssamı, multiplikator, “Oskar” mükafatı laureatı Norman MakLaren (1914-1987) anadan olub.

**Hazırladı: V.Orxan**

# “Baş tutmayan böyük görüş...”

## Tolstoy və Dostoyevskinin qiyabi ünsiyyət sərgisi

Bakıdakı Rus Evinin təşkilatçılığı ilə aprelin 4-də Beynəlxalq Muğam Mərkəzində rus ədəbiyyatının iki klassikinə həsr edilmiş “Baş tutmayan böyük görüş. Tolstoy və Dostoyevski” adlı sərgi açılıb.

Sərgidə L.N.Tolstoy Dövlət Muzeyi fondunun materialları, V.İ.Dal adına Rusiya Dövlət Tarix Muzeyinin fotoşəkilləri, habelə Rusiya Dövlət Kitabxanasının fondundan məktub təqdim olunub.

L.N.Tolstoy Dövlət Muzeyinin elmi işçisi Yelizaveta Alekseyeva qeyd edib ki, bu sərgi Lev Tolstoyun və Fyodor Dostoyevskinin baş tutmayan şəxsi görüşündən bəhs edir: “Biz sərgidə bu paradoksu təhlil etməyə, ziyarətçilərin diqqətinə iki böyük yazıçı arasında qiyabi ünsiyyəti çatdırmağa çalışdıq”.





Yazıçıların həyata birmənalı olmayan baxışı, onların eyni suallara cavablar axtarması, müasirləri tərəfindən onların yaxınlığının qavranılması məsələlərinin təqdimatı sərginin əsas qayəsidir. Layihənin məqsədi sərgiyə gələnlərin özlərinin seçim etməsi və iki dahi yazıçının qiyabi dialoqunun tarixi ilə bağlı öz fikirlərini bildirməsidir.

L.N.Tolstoy və F.Dostoyevski eyni dövrdə yaşayıb, yaradıb və vahid zaman kəsiyində həqiqət axtarışında olublar. Onlar bir-birinin yaradıcılıq yenilikləri ilə yaxından maraqlanıb və uğurlarına seviniblər. Onların hər biri öz müasirinin əsərlərini həyəcanla mütaliə edib, təkrar oxuyub və sitatlar gətirib, qarşı tərəflə qiyabi dialoq aparıb.

Yazıçıların ortaq dostları və tanışları olub. Onlar öz əsərlərini eyni jurnallarda dərc elətdirib, lakin şəxsi tanışlıqları olmayıb və yazışma aparmayıblar, hərçənd bir-biri ilə görüşməyi arzulayıblar. Məhz bu paradoks rus ədəbiyyatının “qızıl dövr”ünün indiyədək açmağa cəhd edilən sirlərindən biridir...

# “Azərbaycanım” müsabiqəsinə rəsm qəbulu davam edir

“Heydər Əliyev İli” çərçivəsində uşaq, yeniyetmə və gənclərin yaradıcılığını stimullaşdırmaq və bədii zövqünü inkişaf etdirmək məqsədilə elan edilən “Azərbaycanım” VI Respublika Uşaq Rəsm Festivalı çərçivəsində eyniadlı müsabiqəyə rəsm qəbulu davam edir.

Yaşı 21-ə qədər şəxslər aprelin 25-dək rəsm əsərini fotosu ilə bərabər əsərin adı, öz adı, soyadı, təvəllüdü, təhsil aldığı məktəbi və əlaqə nömrəsini resmfestival2023@gmail.com ünvanına göndərməklə müsabiqəyə qatıla bilərlər.

Builki müsabiqənin mövzusu güllərdir. Seçim zamanı müəllifin yaşı nəzərə alınmaqla düzgün kompozisiya, rəng seçimi və uşaqların öz düşüncələri ilə işlənmiş əsərlərə üstünlük veriləcək. Ölçü və texnika seçimi sərbəstdir.

Seçim 3 yaş kateqoriyası (11 yaşa qədər, 11-16 və 16-21 yaş) üzrə aparılacaq və hər yaş kateqoriyası üçün ayrıca sərgi açılacaq.

Birinci turdan keçmiş əsərlər sərgilənmək üçün Xətai Sənət Mərkəzinə dəvət olunacaq. Hər yaş qrupu üzrə ən yaxşı 10 əsərin müəllifi festivala dəvət ediləcək. Sərgilər Xətai Sənət Mərkəzində təşkil olunacaq.

Əlavə suallarla bağı 051 310 74 01 telefonu (WhatsApp) ilə əlaqə saxlamaq olar.

Qeyd edək ki, festival və müsabiqə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

# Torontoda Azərbaycan Evi açılıb



**Kanadanın Ontario əyalətinin inzibati mərkəzi olan Toronto şəhərinin Nort York rayonunda Azərbaycan Evi açılıb. Toronto Kanadanın ən böyük şəhəridir, əhalisi 3 milyona yaxındır.**

Aprelin 3-də keçirilən açılış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanın Kanadadakı müvəqqəti işlər vəkili Vasif Abutalıbov, Kanada hökumətinin və parlamentinin təmsilçiləri iştirak ediblər.

Tədbirə moderatorluq edən Kanadanın keçmiş multikulturalizm naziri Toni Ruprext Azərbaycan Evinin milli mədəniyyətin qorunub saxlanılması, gənc nəslə ötürülməsi baxımından önəmini vurğulayıb.



Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Kanadada Azərbaycan Evinin açılması münasibətilə soydaşlarımızı təbrik edib, bu hadisəni dövlətimizin xaricdə yaşayan soydaşlarımıza diqqət və qayğısının təzahürü kimi qiymətləndirib.

Kanada-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Filip Lourens, parlament üzvü Ali Ahsasi, yerli (əyalət) hökumətin üzvü Maykl Tibollo, Türkiyənin Torontodakı baş konsulu Sinem Mingan, Qızılbaş Qlobal İrsi Şurasının regional rəhbəri Arşi Qızılbaş mühüm hadisə ilə bağlı Azərbaycan icmasını təbrik ediblər.

Mərasim Azərbaycan icmasının 200-dən çox üzvü ilə daha geniş tərkibdə davam edib. Güney Azərbaycandan olan soydaşlarımızın da qatıldığı tədbirdə çıxış edən Fuad Muradov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə Ontario əyalətində geniş məlumatlandırma kampaniyası apardıqlarına və irimiqyaslı aksiyalar təşkil etdiklərinə görə icma üzvlərinə minnətdarlığını bildirib.

Prezident İlham Əliyevin 2022-ci ildə Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında səsləndirdiyi tövsiyələri xatırladan komitə sədri xaricdəki həmvətənlərimizin həmrəyliyinin təmin olunması haqqında məlumat verib, koordinasiya şuralarının, Azərbaycan evlərinin və Azərbaycan həftəsonu məktəblərinin fəaliyyət istiqamətlərindən danışıb.

Komitənin fəaliyyət istiqamətləri və həyata keçirdiyi layihələr barədə videohesabat, maarifləndirici videoçarxlar təqdim olunub.

Komitə sədri soydaşlarımızın təkliflərini dinləyib, sualları cavablandırıb.

Kanadadakı "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin və Azərbaycan Evinin rəhbəri Lalin Həsənova fəaliyyət istiqamətləri barədə məlumat verib.

Tədbir bədii hissə ilə davam edib. Azərbaycanın Xalq artisti, vokalçı Həsən Enaminin, "Təbriz" mahnı və rəqs ansamblının, skripkaçı Ceyhun İsmayılovun ifasında Azərbaycan xalq və bəstəkar mahnıları təqdim olunub.

# Misirli nazirin UNESCO baş direktoru vəzifəsinə namizədliyi irəli sürülüb

**Misir hökuməti keçmiş turizm və qədmi abidələr naziri Xalid əl-İnaninin UNESCO-nun baş direktoru vəzifəsinə namizədliyini irəli sürüb.**

Onun namizədliyini Misirin Baş naziri Mustafa Mədbuli keçirdiyi mətbuat konfransında elan edib. Qeyd edib ki, keçmiş nazir 2025-ci ildə keçiriləcək UNESCO-nun baş direktoru seçkilərində iştirak edəcək və bunun üçün hökumətin rəsmi məktubu təşkilatın mənzil-qərargahına göndəriləcək.

2019-2022-ci illərdə nazir vəzifəsində çalışan əl-İnaninin dövründə 20-dən çox muzeyin və arxeoloji obyektlərin, 40-dan çox bərpa və inkişaf layihəsinin açılışı olub, tarixi məscidlərin, monastırların və kilsələrin, İsgəndəriyyədə Eliahu Hanavi sinaqoqunun bərpası layihəsi başa çatdırılıb. Keçmiş nazirin səyləri sayəsində arxeoloji missiyaların sayı əhəmiyyətli dərəcədə artıb ki, bu da mühüm tapıntılara töhfə verib.

Xatırladaq ki, 2017-ci ildə UNESCO-nun baş direktoru vəzifəsinə namizəd göstərilmiş misirli Muşira Xəttab seçkilərdə təşkilatın hazırkı rəhbəri Odri Azuleyə məğlub olmuşdu.

Baş direktor UNESCO-nun Baş Konfransında 4 il müddətinə seçilir. 2021-ci ildə ikinci dəfə seçilən Odri Azulenin səlahiyyət müddəti 2025-ci ildə başa çatacaq. Daha öncə təşkilatın baş direktorları 6 il müddətinə (maksimum iki dəfə olmaqla), sonra isə 5 il müddətinə seçilirdi. 2009-cu ildən bu müddət 4 ilə endirilib.



# Türkiyənin daha iki irs elementi UNESCO siyahısına namizəddir

**Türkiyənin daha iki mədəni irs nümunəsi UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahılarına daxil edilmək üçün nominant seçilib.**

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, ənənəvi türk musiqi aləti olan tulumun hazırlanması və onda ifa edilməsi sənətinin Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına, "Altıneller" ("Qızıl əllər") festivalının isə Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına namizəddir.

Hazırda Türkiyə UNESCO-nun siyahılarına salınmış qeyri-maddi mədəni irs elementi sayına görə (25) dünyada üçüncü yeri tutur. Bu siyahıda birinci yerdə Çin Xalq Respublikası (43 element), ikinci sırada Fransadır (26 element). Keçən il Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi daha 5 elementin UNESCO siyahılarına daxil olunmasını təklif edib. Əgər planlar həyata keçirilərsə, bu il Türkiyə reytinqdə ikinci yerə çıxa bilər.

# Şanxay Beynəlxalq Film Festivalı fəaliyyətini bərpa edəcək

SHANGHAI INTERNATIONAL FILM FESTIVAL 上海国际电影节

**Keçən il pandemiya səbəbindən ləğv edilən 25-ci Şanxay Beynəlxalq Film Festivalı cari il iyunun 9-dan 18-dək keçiriləcək. 2022-ci ildə festivalın ləğvi qərarından bu günə kimi təşkilatçılar 100-dən çox ölkədən film layihələri qəbul ediblər.**

Xatırladaq ki, Çinin ən nüfuzlu kino forumu dünyanın böyük bir hissəsində pandemiyanın tədricən başa çatdığının elan olunduğu, o cümlədən beynəlxalq festival və müsabiqələrin ənənəvi formatda təşkil olunduğu bir vaxtda ləğv edilmişdi. Səbəb isə ötən yazda Çində koronavirus pandemiyasının yenidən baş qaldırması olmuşdu. Nəticədə 25-ci Şanxay Beynəlxalq Film Festivalı bir il sonraya ertələndi.

Maraqlıdır ki, Şanxay kinofestivalı hətta pandemiyanın qızğın dövrü sayılan 2020-ci ildə belə ləğv olunmamış və proqramı ixtisar edilərək, həmçinin tədbirlərin bir qismi onlayn rejimdə olsa da, 25 iyul – 2 avqust tarixlərində keçirilmişdi. Bu, COVİD-19 pandemiyasının ilk ilində dünya üzrə kinoteatrlarda nümayişi təşkil edilən yeganə beynəlxalq festival idi.

Şanxay Beynəlxalq Film Festivalı 1993-cü ildən keçirilir. Festivalın münsiflər heyətinə müxtəlif vaxtlarda dünya şöhrətli kinematoqrafçılar daxil olub.

# Bakıda Rusiya kinosu günləri

**5-8 aprel tarixlərində Bakıda Rusiya kinosu günləri keçirilir. Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) dəstəyi ilə gerçəkləşən layihənin açılışı aprelin 5-də Nizami Kino Mərkəzində olub.**



Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov giriş nitqində diqqətə çatdırıb ki, Bakıda belə bir layihə axırıncı dəfə pandemiyadan öncə həyata keçirilib. Səfir qeyd edib ki, Rusiyada hər il müxtəlif janrlarda bir çox filmlər çəkilir, kinofestivallar keçirilir, kinematoqrafiyaya böyük diqqət yetirilir.

Azərbaycan Mədəniyyət Nazirliyinin audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov hər il həm Azərbaycanda, həm də Rusiyada keçirilən mədəni tədbirlərin qarşılıqlı əməkdaşlığa töhfə olduğunu bildirib.

Bakıdakı Rus Evinin (RİMM) rəhbəri İrek Zinnurov Azərbaycan və Rusiya arasında münasibətlərin zəngin tarixindən söz açaraq, layihənin həyata keçirilməsi üçün təşkilatçılara təşəkkür edib.




Festival rejissor Aleksey Pimanovun çəkdiyi "On bir səssiz adam" filminin nümayişi ilə açılıb. Film Moskvanın məşhur "Dinamo" komandasından bəhs edir. 77 il əvvəl idmançılar İngiltərə Futbol Assosiasiyasından cəlbedici təklif alıblar. Beləliklə, onlar Londonda ingilis klubları ilə yoldaşlıq oyunları keçirmək imkanı əldə ediblər...

Qeyd edək ki, Rusiya kinosu günlərinin proqramına "Suvorov: böyük səyahət" (rejissor Boris Çertkov), "Liberiya: xəzinə ovçuları" (rejissor Qleb Orlov) və "1941. Berlin üzərində qanadlar" (rejissor Konstantin Buslov) filmləri də daxildir.

Aprelin 7-də Bakıdakı Rus Evində Rusiyanın Xalq artisti Yuri Nazarov və aktrisa Polina Neçitaylo ilə yaradıcılıq görüşü keçiriləcək.

# Özbəkistanın mədəniyyət və milli mətbəxinin təqdimatı



**Bakıda keçirilən 19-cu Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi ("AITF – 2023") çərçivəsində aprelin 5-də "Fairmont Baku" hotelində Özbəkistanın turizm və mədəniyyət günlərinə həsr olunan ziyafət təşkil edilib.**

Tədbir Özbəkistanın Mədəniyyət və Turizm Nazirliyinin və ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə reallaşıb. Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrindən söz açaraq bildirib ki, tədbirdə iştirak etmək üçün ölkəmizdən çoxlu sayda nümayəndə təşrif buyurub: "Bu cür tədbirlərin keçirilməsi iki qardaş ölkə arasında dostluq münasibətlərinin daha da inkişafına töhfə verəcək. Bu gün burada təşkil olunmuş ziyafətdə, eyni zamanda Özbəkistanın milli xalq musiqi və rəqs folklor nümunələri nümayiş olunur. Həmçinin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş "Xarəzm ləzgi rəqsi" təqdim olunacaq".

Özbəkistan Mədəniyyət və Turizm Nazirliyi nəzdində Milli Piar Mərkəzinin rəhbəri Dilfuza Samandarova Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu deyib: "AITF – 2023" sərgisi çərçivəsində bu cür tədbirlərin təşkili, milli musiqi və rəqs folklorumuzun, milli mətbəximizin təqdimatı bizim üçün böyük şərəfdir".

Sonra Özbəkistanın musiqi və rəqsləri ifa olunub, eləcə də milli mətbəx nümunələri təqdim edilib.

"Mədəniyyət" qəzetinin kollektivi iş yoldaşları
Savalan Fərəcova oğlu

**Şamil Fərəczadənin**

faciəli vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**




## Olaylar, faktlar (9-11 aprel)

### 388 il əvvəl...

**11 aprel 1635-ci ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1623-1639) gedişində türk qoşunları İrəvan qalasını geri alıblar. Qala 1604-cü ildə Səfəvi-Osmanlı müharibəsi (1603-1612) zamanı I şah Abbas tərəfindən tutulmuş və İrəvanın idarəçiliyi Əmirgün xan Qacara verilmişdi. Sonrakı iki əsrdə İrəvan bölgəsi (xanlığı) daha bir neçə dəfə Səfəvilərlə Osmanlılar arasında əldən-ələ keçdi. 1827-ci ildə İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildi.

### 103 il əvvəl...



**11 aprel 1920-ci ildə** İstanbuldakı işğalçı qüvvələrin təzyiqi ilə Osmanlı dövlətinin parlamenti – Meclis-i Mebusan fəaliyyətini dayandırıb. 1918-ci ilin 30 oktyabrında Osmanlının I Dünya müharibəsinin qalib tərəfi olan Antanta (Britaniya, Fransa, ABŞ) ilə imzaladığı Mudros sülh sazişinə əsasən, paytaxt İstanbul müttəfiq güclərin nəzarətinə keçmişdi. İki palatadan ibarət Meclis-i Mebusan 23 dekabr 1876-cı il tarixli Anayasa (Kânûn-ı Esâsî) əsasında 1877-ci ildə fəaliyyətə başlamışdı. Məclisə son seçkilər 1919-cu ildə keçirilmişdi.

### 83 il əvvəl...

**9 aprel 1940-cı ildə** Almaniya Norveç və Danimarkaya hücum edib. Danimarkanın işğalı bir neçə saat çəkdi. Norveçlə müharibə isə iyunun 8-dək davam etdi. Avropanın şimalında strateji region olan Norveçin işğalından sonra Hitler həm Britaniya, həm də SSRİ-yə hücum üçün əlverişli imkan qazandı.

### 78 il əvvəl...

**11 aprel 1945-ci ildə** faşistlərin Buxenvald konslagerində məhbusların qiyamı başlayıb. Hitlerin sonuncu ölüm düşərgəsi ləğv olunub. 1937-ci ildə təşkil olunan Buxenvald konslagerinə səkkiz ildə 240 minə yaxın məhbus salınmış, onlardan 10 mini (o cümlədən 8,5 mini sovet hərbi əsiri) məhv edilmişdi.

### 34 il əvvəl...



**9 aprel 1989-cu ildə** Gürcüstanın paytaxtı Tbilisidə əhalinin antisovet şüarlı kütləvi aksiyası hərbi qüvvələr tərəfindən yatırılıb. Hərbçilərlə toqquşmada 16 nümayişçi həlak olmuşdu. Tbilisi hadisələri 1986-cı ilin dekabrında Almatı şəhərində baş vermiş olaylardan sonra zorla yatırılan ikinci antisovet çıxışı idi. Onun ardınca Bakı, Vilnüs, Riqa hadisələri baş verdi.

### 26 il əvvəl...

**10 aprel 1997-ci ildə** Azərbaycan Respublikasının Prezidenti yanında məşvərətçi orqan – Təhlükəsizlik Şurası yaradılıb.

### 23 il əvvəl...

**9 aprel 2000-ci ildə** Bakıda böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktoru K.Matsuuranın iştirakı ilə qeyd olunub. Yubiley münasibətilə Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) təntənəli mərasim, "Gülüstan" sarayında rəsmi qəbul keçirilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 900
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641